AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 İYUL 2019-cu il ŞƏNBƏ № 150 (6477) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Monteneqronun Prezidenti Zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Prezident,

Monteneqronun milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq və əməkdaşlıq münasibətləri ardıcıl şəkildə inkişaf edərək xalqlarımızın rifahına bundan sonra da töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2019-cu il.**

## "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1326-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 7, maddə 388; 2006, N 1, maddə 3, N 2, maddə 75; 2007, N 6, maddə 560; 2008, N 6, maddə 462; 2012, N 11, maddə 1058; 2016, N 2 (I kitab), maddə 196; 2018, N 2, maddə 152) ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin 4-cü maddəsinin üçüncü hissəsinə "189.4," rəqəmlərindən sonra "212.3," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 may 2019-cu il.**

## "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1574-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1574-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyun 2019-cu il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına Albaniya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Mart ayında Bakı şəhərində Sizinlə görüşümüzü, eləcə də Sizin dost və səmimi qonaqpərvərliyinizi məmnuniyyətlə xatırlayıram. Zati-aliləri, icazə verin, Albaniya ilə Azərbaycan arasında mövcud olan çox gözəl dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərimi davam etdirəcəyimi Sizə bir daha bildirim.

Eyni zamanda, Albaniyanı enerji dəhlizlərinin mühüm şəbəkəsinə çevirən TAP və İAP boru kəmərləri layihələrinə göstərdiyi dəstəyə görə Azərbaycana xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu layihələrin uğurlu icrasının ölkələrimiz arasında qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar açacağına əminəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Sizin üçün münasib olan vaxtda Zati-alinizlə Tirana şəhərində görüşmək arzusu ilə,*

**İlir Meta**
**Albaniya Respublikasının Prezidenti**

# Müstəqil məhkəmə-hüquq sisteminin formalaşdırılması ulu öndərin adı ilə bağlıdır

***Hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində öz təcəssümünü tapmışdır. Azərbaycan kimi özünəməxsus dəyərləri, mentaliteti, dövlətçilik ənənələri olan ölkələrdə şəxsiyyət və lider amili hər zaman aktualdır. Bu prizmadan baxdıqda əminliklə demək olar ki, xalqımızın əsrlər boyu formalaşan güclü, qətiyyətli, istiqamətverici milli lider idealı məhz dünya şöhrətli ictimai-siyasi xadim, ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyətində həqiqətə çevrilib. Ulu öndər XX əsr Azərbaycan tarixində təkcə milli müstəqillik ideyasını praktik surətdə gerçəkləşdirmiş lider kimi yox, həm də yaratdığı dövlətin möhkəmliyini təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi və hüquqi zəmin hazırlayan böyük strateq, müdrik rəhbər kimi daim xalqın qəlbində yaşayır.***



Ulu öndər Heydər Əliyevin bacarıqlı dövlət xadimi, təcrübəli siyasətçi, Azərbaycan dövlətçiliyinin güclü təməlini yaradan və onu daim möhkəmləndirən, davamlı inkişaf yoluna çıxaran qüdrətli şəxsiyyət kimi həyat və fəaliyyəti müasir tariximizin mühüm mərhələsini təşkil edir. Xalqımız tarix boyu əxz etdiyi dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qurmuş, azərbaycanlıların bir millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu sahəsində və onun tərkib hissəsi olan məhkəmə-hüquq islahatlarında ümummilli liderimiz Heydər Əliyevin rolundan danışılanda bəzən bu islahatların 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiya ilə başlanılması vurğulanır. Halbuki, həmin islahatlar çox-çox əvvəl, hələ Heydər Əliyevin Sovet Azərbaycanına 1969-1982-ci illərdə rəhbərlik etdiyi vaxtlarda başlamışdır. Onun həmin dövrdə atdığı uzaqgörən və radikal addımların xalqımızın taleyində köklü dəyişikliklərə səbəb olması danılmazdır.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə respublikanın 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu alması təsdiq olundu. Bu məsələ ona görə xüsusi olaraq vurğulanmalıdır ki, o zaman İttifaqın iri respublikaları öz dillərini dövlət dili statusuna qaldıra bilməmişdi.

1981-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə respublikada "Məhkəmə Quruluşu haqqında" yeni qanunun qəbul edilməsi məhkəmə orqanlarının inkişafı və möhkəmlənməsi üçün şərait yaratmışdır.

**(davamı 3-cü səhifədə)**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli 549 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 606; 2001, N 10, maddə 640; 2002, N 4 (II kitab), maddə 189, N 10, maddə 592; 2003, N 10, maddələr 566, 569; 2004, N 6, maddə 432; 2005, N 5, maddələr 400, 403, 405; 2006, N 7, maddə 590, N 8, maddə 678, N 9, maddə 742; 2007, N11, maddə 1097, N 12, maddə 1246; 2008, N 7, maddə 613; 2009, N 3, maddə 163, N 10, maddə 788, N 12, maddə 990; 2010, N 6, maddə 498, N 7, maddə 610; 2016, N 2 (II kitab), maddə 233, N 3, maddə 438; 2017, N 7, maddə 1352, N 11, maddə 2032) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 4.2.1-ci yarımbəndinin beşinci abzasında "statusu almış" sözləri "kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 12, maddə 844; 2001, N 7, maddə 470, N 10, maddə 640; 2002, N 12, maddə 725; 2003, N 9, maddə 475, N 10, maddələr 569, 585; 2004, N 9, maddə 678; 2005, N 5, maddə 400; 2006, N 7, maddə 590; 2007, N 5, maddə 452, N 6, maddə 599, N 11, maddə 1097; 2008, N 7, maddə 613; 2009, N 3, maddə 163, N 12, maddə 990; 2010, N 6, maddə 498, N 7, maddə 610; 2013, N 10, maddə 1146; 2014, N 5, maddə 477; 2015, N 9, maddə 999; 2016, N 8, maddə 1384; 2019, N 3, maddə 413) ilə təsdiq edilmiş "Açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin səhmlərinin əmək kollektivinə güzəştli satışı haqqında Əsasnamə"nin 2.1-ci bəndinin beşinci abzasında "statusu almış" sözləri "kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin.

**3.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli 549 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 8, maddə 525; N 8, maddələr 485, 488; 2008, N 9, maddə 798; 2011, N 7, maddə 633; 2014, N 5, maddə 477, N 12, maddə 1571; 2016, N 8, maddə 1384) 2-ci hissəsi ləğv edilsin.

**4.** "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 90, N 7, maddə 625, N 11, maddə 996; 2012, N 9, maddə 853, N 11, maddə 1084; 2013, N 2, maddə 124, N 12, maddə 1525; 2014, N 7, maddə 789, N 9, maddə 1053; 2015, N 1, maddə 17, N 3, maddələr 263, 264, N 6, maddə 705, N 8, maddə 908, N 10, maddə 1134; 2016, N 3, maddə 437, N 5, maddə 859, N 6, maddələr 1051, 1072; 2017, N 9, maddə 1633; 2018, N 3, maddə 433, N 6, maddə 1245; 2019, N 1, maddə 73) aşağıdakı dəyişikliklər edilsin:

*4.1.* həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" üzrə:

4.1.1. 3.1.26-cı yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə və "əmək bazarının real tələblərinə müvafiq peşə hazırlığını, əlavə təhsilini və haqqı ödənilən ictimai işlərə" sözləri "aktiv məşğulluq tədbirlərinə" sözləri ilə əvəz edilsin;

4.1.2. aşağıdakı məzmunda 3.1.27-1-ci yarımbənd əlavə edilsin:

"3.1.27-1. peşə standartlarının hazırlanmasını, təsdiqini və tətbiqini təmin etmək;";

*4.2.* həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti haqqında Əsasnamə" üzrə:

4.2.1. 1.1-ci bənddə və 3.1.4-cü yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

4.2.2. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. qanunla müəyyən olunmuş qaydada işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədilə aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsini təmin edir;";

4.2.3. 2.1.4-cü yarımbənddə "daha çox" sözləri "xüsusi" sözü ilə və "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

4.2.4. 2.1.6-cı yarımbənd ləğv edilsin;

4.2.5. 3.1.3-2-ci yarımbəndə "sığorta ödənişinin" sözlərindən sonra "və şəxsin peşə hazırlığına cəlb olunduğu dövrdə təqaüdün" sözləri əlavə edilsin;

4.2.6. 3.1.5-ci və 3.1.6-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.5. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məşğulluğa kömək məqsədilə şəxslərin işaxtaran və işsiz kimi qeydiyyata alınmasını təmin etmək;

3.1.6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, işaxtaran və işsiz şəxslər üçün aktiv məşğulluq tədbirləri həyata keçirmək";

4.2.7. 3.1.7-ci və 3.1.8-ci yarımbəndlər ləğv edilsin;

4.2.8. 3.1.8-1-ci yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə, "əlavə iş yerləri və ixtisaslaşdırılmış" sözləri "kvotadan əlavə iş yerlərinin və sosial" sözləri ilə əvəz edilsin;

4.2.9. 3.1.9-2-ci yarımbənddə "kimi qeydiyyata alınmış və işsiz statusu almış" sözləri "və işsiz kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "aktiv" sözündən sonra "məşğulluq" sözü əlavə edilsin;

4.2.10. 4.1.1-ci yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin və həmin yarımbənddən ", qanunvericilikdə nəzərdə tutulmuş hallarda təyinatı üzrə müvafiq vəsaitin köçürülməsi" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 iyun 2019-cu il.**

# Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib

## Tədbirdə "Ulu Öndər" sənədli filminin və eyniadlı mahnının təqdimatı olub




**Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi ilə bağlı iyulun 12-də Bakıda "Ulu Öndər" sənədli filminin və eyniadlı mahnının təqdimatına həsr olunan tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi Azərbaycanda dövlət gənclər siyasətinin banisi olan Heydər Əliyevin ölkə gənclərinə göstərdiyi xüsusi diqqət və qayğını bir daha nümayiş etdirmək olub.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli HƏSƏNOV tədbirdə çıxış edərək deyib ki, ulu öndər Heydər Əliyev bütün fəaliyyəti boyu öz qlobal düşüncə tərzi, müdrik və uzaqgörən siyasəti, nadir liderlik keyfiyyətləri, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə Ümummilli Lider səviyyəsinə yüksəlmiş və adı dünya tarixinə düşmüş görkəmli siyasi və dövlət xadimi, qüdrətli tarixi şəxsiyyət olmuşdur. Heydər Əliyev fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlıların qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəltmiş, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmış və dinamik inkişafını təmin etmiş BÖYÜK AZƏRBAYCANLI idi.

Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq onu bütün həyatı boyu fərqləndirmişdir. İstər sovet hakimiyyəti dönəmində fəaliyyət göstərdiyi bütün sahələrdə, istərsə də müstəqillik dövründə Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət etmiş, ölkəni geridə qalmış aqrar respublikadan güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirmiş, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin etmiş, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektual gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində və inkişaf yoluna çıxarılmasında böyük xidmətlərindən danışan Əli Həsənov vurğulayıb ki, 1990-cı illərin əvvəllərində, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda vətəndaş qarşıdurmasının vüsət aldığı, etnik separatizmin baş qaldırdığı, torpaqlarımızın işğal olunduğu, ölkənin daxildən və xaricdən ciddi xaos və anarxiyaya sürükləndiyi, sosial-siyasi böhranın gündən-günə dərinləşdiyi bir vaxtda Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadan geri qayıtmış, doğma Vətənində milli vətəndaş birliyinin yaradılması, dövlətçiliyin xilası və qorunması, ölkənin müstəqilliyinin bərpası istiqamətində əsl tarixi missiya həyata keçirmişdir. Prezidentin köməkçisi demişdir: "Nə qədər ağır və çətin olmasına baxmayaraq, Heydər Əliyevin 1990-1993-cü illərdəki fəaliyyəti - öz xalqının milli azadlıq və müstəqillik uğrundakı mübarizəsinə qoşulması və faktiki olaraq müstəqillik uğrunda mübarizə hərəkatına rəhbərlik etməsi dövrü Azərbaycan dövlətçiliyinin və milli tariximizin parlaq səhifələrini təşkil edir. 1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda Heydər Əliyev xalqın çağırışına səs vermiş, onun tələbi və dəstəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtmış və xüsusi qurtuluş missiyası həyata keçirərək milli dövlətçiliyin XİLASKARINA çevrilmişdir".






Sonrakı 10 il müddətində - 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi ilə milli inkişafın əsaslarının yaradıldığını qeyd edən Prezidentin köməkçisi demişdir ki, daxili sabitlik, qanunçuluq, sosial ədalət, milli həmrəylik təmin olunmuş, Azərbaycanın daxili və xarici siyasətinin, dövlət idarəçiliyinin, yeni iqtisadi, siyasi və sosial münasibətlərin, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsasları formalaşdırılmış, bütün sahələr üzrə ölkənin inkişaf strategiyası hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyev bu mərhələdə həlledici tarixi xidmət və uğurlu fəaliyyət göstərərək həm də müstəqil Azərbaycan dövlətinin BANİSİ və QURUCUSUNA çevrilmişdir. Hazırda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti "öz doğma xalqına sədaqətli xidmətin və onun yolunda hər cür fədakarlığa hazır olmanın" əsl nümunəsinə çevrilmişdir.



"Ulu Öndərin öz dəyərini həmişə saxlayacaq uzaqgörən siyasəti, parlaq dühası və zəngin irsi Azərbaycanın uğurlu inkişafının təməlində dayanır", - deyən Əli Həsənov diqqətə çatdırıb ki, bu gün dinamik inkişaf edən, region və dünya siyasətində, əksər transmilli layihələrdə öz dəst-xətti ilə seçilən müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin yadigarı və şah əsəridir. Hər bir vətənsevər azərbaycanlının Ümummilli Liderin unudulmaz və əziz xatirəsi qarşısındakı müqəddəs borcu müstəqil və qüdrətli Azərbaycan dövlətini qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışını bu sözlərlə bitirib: "Ulu öndər Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasının, milli dövlətçilik təfəkkürünün, peşəkar idarəçilik təcrübəsinin, zəngin siyasi irsinin və onun birbaşa xidmətləri sayəsində tamamlanaraq milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və hərtərəfli inkişaf etdirilməsi Azərbaycan elitası qarşısında dayanan əsas vəzifələrdəndir".

Sonra "Ulu Öndər" sənədli filminin və eyniadlı mahnının təqdimatı olub.

Gənclər və İdman Nazirliyinin təşəbbüsü və sifarişi ilə "MZ Prodakşn" tərəfindən istehsal olunmuş filmin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, professor Rafiq Quliyev, redaktoru İradə Sultanova, prodüseri Üzlüfət Qasımovadır. Filmdə ümummilli lider Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək həyat və fəaliyyətinin müxtəlif dövrünü əhatə edən kadrlar yer alıb, Ulu Öndərin Azərbaycan gənclərinə verdiyi tövsiyələr səsləndirilib.

Azərbaycan Milli Konservatoriyasının tələbələrinin ifa etdikləri "Ulu Öndər" mahnısının musiqisi Konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimiyə, sözləri Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğluya məxsusdur.

**AZƏRTAC**

# Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

**İyulun 12-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və ölkəmizin Böyük Britaniyadakı səfiri Tahir Tağızadə Britaniya parlamentində olublar.**

AZƏRTAC xəbər verir ki, parlamentdə keçirilən görüşdə Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans, Britaniyada nüfuzlu siyasi analitik Leonel Zetter, Azərbaycan-Böyük Britaniya və Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbəri Cavanşir Feyziyev iştirak ediblər.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, Britaniyadakı ictimai-siyasi vəziyyət, Brexit və Brexit-dən sonra Azərbaycanla ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

**AZƏRTAC**

# İstehlakçıların elektrik və qaz təchizatı şəbəkələrində 1004 araşdırma aparılıb

2019-cu ilin I yarısında Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən büdcədən maliyyələşən istehlakçıların elektrik və qaz təchizatı şəbəkələrində ümumilikdə 1004 sayda araşdırma aparılıb,- qurumun mətbuat xidmətindən verilən məlumatda bildirilir - elektrik qurğularının texniki istismar, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyəti ilə əlaqədar büdcədən maliyyələşən istehlakçılar üzrə aparılan araşdırmaların sayı isə 542-dir.




Eyni zamanda, büdcədən maliyyələşən müəssisələrdə qazdan səmərəli istifadənin və qaz qurğularının etibarlı istismarının təmin edilməsinin, həmçinin Azərbaycan Respublikasının qanunlarının, "Qazdan istifadə qaydaları"nın və müvafiq sahəyə dair digər normativ-hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 462 obyektdə yoxlama aparılıb.

Araşdırmalar zamanı aşkar olunmuş pozuntulara görə müvafiq aktlar tərtib edilib və çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi olan müvafiq göstərişlər verilib.

Həmçinin, agentlik tərəfindən 26 obyektin elektrik qurğu və avadanlıqlarının "Elektrik enerjisindən istifadə qaydaları"nın tələbləri pozulmaqla, texniki sənədləşdirmə aparılmadan elektrik şəbəkələrinə qoşulduğu aşkar edilib. Qazpaylayıcı şəbəkəyə isə 12 sayda qanunsuz qoşulma faktı qeydə alınıb. Elektrik və qaz şəbəkələrinə qanunsuz qoşulma ilə əlaqədar tədbir görülməsi, o cümlədən belə obyektlərə elektrik enerjisi verilişinin və qaz təchizatının dayandırılması barədə enerji təchizatı müəssisələrinə və qaz paylayıcılara göstərişlər verilib.

Qeyd edək ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 279, 280, 281.1, 281.2, 282.1 və 282.2-ci maddələri üzrə protokolların tərtib edilməsi Enerji Məsələlərini Tənzimləmə Agentliyinin səlahiyyətinə verilib. Hesabat dövründə İXM-nin müvafiq maddələri ilə elektrik enerjisi təchizatı sahəsində yol verilmiş pozuntularla bağlı 24, qaz təchizatı sahəsində 30 protokol tərtib edilib.

Bundan başqa, hesabat dövründə "Azərenerji" və "Azərişıq" ASC-nin nümayəndələrinin iştirakı ilə 56 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib, cərəyan transformatorlarının sxemləri və əmsalları yoxlanılaraq möhürlənib, sayğacların kompüterlə oxunması həyata keçirilib.

Eyni zamanda, istehlakçıların müraciəti əsasında 82 müəssisədə 491 nəfərlik elektrotexniki heyətin əməyin mühafizəsi, texniki istismar, texniki təhlükəsizlik, yanğın təhlükəsizliyinə dair biliyi yoxlanılıb.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

**Məhkəmə-Hüquq Şurasının iclası keçirilib.**



Məhkəmə-Hüquq Şurasından AZƏRTAC-a bildiriblər ki, iclasda dövlətimizin başçısının "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı üzrə görülən işlər müzakirə edilib.

Çıxış edən Şuranın sədri, Ədliyyə naziri Fikrət Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi qüdrətinin daim artdığını, sosialyönümlü mühüm qərarların qəbul olunduğunu vurğulayıb, ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq məhkəmə fəaliyyətinin də müasirləşdirildiyini qeyd edib.

Bildirilib ki, Fərmanın icrası üzrə məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması və digər məsələlər üzrə qanunvericiliyə əsaslı dəyişikliklər nəzərdə tutan mühüm layihələr hazırlanaraq təqdim olunub.

Artıq bəzi qanun layihələri bu ərəfədə Milli Məclis tərəfindən qəbul edilib. Yeni qanunvericiliyə uyğun olaraq, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması, sahibkarlıqla bağlı mübahisələrə bu sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və daha çevik baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələrin - Kommersiya məhkəmələrinin yaradılması təsbit olunub. Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına əlavə təkan olacaq bu məhkəmələrdə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə baxılması nəzərdə tutulur.

Həmçinin hakimlərin müstəqilliyinin təmin edilməsi məqsədilə onların maddi təminatının yaxşılaşdırılmasına, məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edən digər mühüm qanunlar qəbul edilib. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş bu qanunlar ölkəmizin məhkəmə sisteminin daha effektiv fəaliyyətinin təmin edilməsində mühüm rol oynayacaq.

İclasda Fərmana uyğun olaraq hakim ştatlarının sayının 200 vahid artırılmasının iş yükünün azalmasına, bununla da süründürməçilik hallarının qarşısının alınmasına, işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəyi vurğulanıb. Ölkəmizdə tətbiq olunan hakimlərin seçilməsi qaydasının Avropada ən şəffaf və obyektiv seçim üsulu kimi qiymətləndirildiyi bildirilib, müasir İKT-lər tətbiq olunmaqla namizədlər üçün daha əlverişli şəraitin yaradılması və çevikliyin təmin olunması məqsədilə qaydalara müvafiq dəyişikliklər edilib.

Şurada hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə yaradılmış "Qaynar Xəttin" fəaliyyəti təqdir olunub. Qeyd edilib ki, Fərmanın icrası üzrə yaradılmış monitorinq sektorları tərəfindən məhkəmələrdə mütəmadi monitorinqlər keçirilərək qeyri-prosessual münasibətlərə şərait yaradan və vətəndaşların haqlı narazılığını doğuran pozuntular dərhal aradan qaldırılmaqla, yol verilən nöqsanlar hakimlərin və məhkəmə sədrlərinin diqqətinə çatdırılıb, daha kobud pozuntularla bağlı isə intizam icraatları başlanılıb.

Vətəndaşlar üçün əlverişli şərait yaradılması və yol verilən nöqsan və çatışmazlıqların yerində aradan qaldırılmasının təmin edilməsi məqsədilə bilavasitə məhkəmələrdə qəbulların keçirilməsi təcrübəsinin yaradılması təqdir olunaraq, qəbul günləri barədə əvvəlcədən internet resurslarında müvafiq elanların yerləşdirilməsi məqsədəmüvafiq bilinib.

Fərmanda qarşıya qoyulmuş vəzifələrin icrası üzrə, həmçinin hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığın daha da artırılması, bu sahədə tətbiq edilən meyarların təkmilləşdirilməsi məqsədilə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi metodologiyasının yeni layihəsi, habelə məhkəmə monitorinqlərinə dair qaydalar hazırlanıb.

Eyni zamanda, iclasda Fərmandan irəli gələn məsələlər üzrə əlavə tədbirlər müəyyən olunub, təcrübəli hakimlərin və könüllülərin Şuranın fəaliyyətinə daha geniş cəlb edilməsi, intizam icraatları üzrə qərarların profilaktik təsirinin gücləndirilməsi, xarakterik və digər nöqsanların qarşısının alınması məqsədilə onların hakimlərlə müzakirəsinin yerində təşkili qərara alınıb.

Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə bir sıra hakimlər intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Gəncə İnzibati-iqtisadi məhkəməsinin sədri Natiq Abbasovun və hakimi Kamil Rzayevin, Göygöl rayon məhkəməsinin hakimi Rafiq Məmmədovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərarlar qəbul edilib.

**AZƏRTAC**

# Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi

## *Tərəqqiyə yüksələn 50 illik yolun (1969-2019-cu illər) sosial-iqtisadi nəticələri*

*(əvvəli 10 iyul tarixli sayımızda)*

Bu məsələdən bəhs edərək Heydər Əliyev qeyd etmişdir ki, respublikada "məhsuldar qüvvələrin yerləşdirilməsini daha da təkmilləşdirmək lazımdır. Söhbət respublikada ictimai istehsalatda çatışmayan əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin yüksək olduğu, bu əhalinin çevik hissəsinin, xüsusən cavan oğlanların işləmək üçün əsasən Bakı şəhərinə getmək istədiyi ayrı-ayrı zonaların və rayonların iqtisadi inkişaf səviyyələrini planauyğun şəkildə bərabərləşdirməkdən gedir. **Başqa çətinliklərlə yanaşı, bu gələcəkdə əhalinin artması üçün demoqrafik çətinliklər yaradacaqdır".** Bu çətinlikləri aradan qaldırmaq məqsədilə 1971-1985-ci illərdə respublikanın xalq təsərrüfatına o zaman üçün çox böyük məbləğ hesab olunan 42,2 milyard manatdan artıq vəsait qoyulmuş, 37,4 milyard manatlıq əsas fondlar, müasir və yüksək texniki səviyyəli avadanlıqlarla təchiz olunmuş, 249 iri sənaye müəssisələri tikilib işə salınmış, respublikamız üçün yeni olan müasir elektronika və radiotexnika sənaye sahələri yaradılmış, sənaye istehsalının strukturu, kimya, neft kimyası, elektronika, maşınqayırma və cihazqayırma sahələrinin, kənd təsərrüfatının strukturu isə pambıqçılıq və üzümçülük kimi yüksək əmək tutumlu sahələrin inkişafı hesabına xeyli dəyişdirilib təkmilləşdirilmiş, habelə yüksək ixtisaslı mütəxəssislər və fəhlə kadrları hazırlanmasına diqqət artırılmışdır. **1971-1980-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş kapital qoyuluşunun həcmi isə 1920-1970-ci illəri əhatə edən 50 il ərzindəkindən 2,1 dəfə, o cümlədən sənayedə - 2,1 dəfə, kənd təsərrüfatında - 4,2 dəfə, nəqliyyat və rabitədə - 2,2 dəfə, tikintidə - 3,6 dəfə, mənzil tikintisində (fərdi tikintilərsiz) isə - 1,5 dəfə çox olmuşdur. 1970-1985-ci illərdə** respublika iqtisadiyyatında məşğul olanların sayı 1,5 dəfədən çox artaraq 1543 min nəfərdən 2357 min nəfərə gəlib çatmış, xalq təsərrüfatında məşğul olanların sayı isə İttifaq miqyasında olduğuna nisbətən 2,3 dəfə, o cümlədən fəhlə və qulluqçuların sayı təqribən 2,0 dəfə (95,2%) sürətlə çoxalmışdır. **Heydər Əliyevin təşəbbüsü və təkidli tələbi ilə Sov. İKP MK tərəfindən qəbul edilmiş təkcə iki qərarın - "1976-1980-ci illərdə Azərbaycanda sənayenin ayrı-ayrı sahələrinin" və "kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması, üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsinin"** həyata keçirilməsi nəticəsində həmin dövrdə ölkə iqtisadiyyatına 255,6 min nəfər əlavə işçi qüvvəsi cəlb edilmişdir. 1961-1970-ci illərdə kənd təsərrüfatında (dövlət müəssisələrində və kolxozlarda) məşğul olanların sayı 28,2 min nəfər azaldığı halda, 1971-1980-ci illərdə onların sayı 161,5 min nəfər artmışdır.

**Heydər Əliyevin ən mühüm xidmətlərindən biri də 1969-1982-ci illərdə respublikamız üçün əlahiddə əhəmiyyəti olan yüksək ixtisaslı kadrların, xüsusilə milli kadrların hazırlığına ciddi fikir verməsi və qayğı göstərməsindən ibarət olmuşdur.** Bu dövrdə Azərbaycanda ali məktəblərin sayı artaraq 12-dən 17-ə, orada təhsil alanların sayı isə 70 min nəfərdən 100 min nəfərə; xalq təsərrüfatında məşğul olan əhalinin hər min nəfərinə düşən ali və orta (tam və natamam) təhsili olanların sayı 33,1 faiz artaraq 674 nəfərdən 897 nəfərə; xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı isə 2,2 dəfə artaraq 274 min nəfərdən 606,2 min nəfərə; ali və orta ixtisas məktəblərində təhsil alanların sayı 6,5 faiz artaraq 171 min nəfərdən 182,1 min nəfərə, həmin təhsil ocaqlarını bitirən mütəxəssislərin sayı isə 39,2 faiz artaraq 31,9 min nəfərdən 44,4 min nəfərə çatmışdır. Respublikamızın xalq təsərrüfatı təkcə onuncu və on birinci beşilliklərdə 400 min nəfərdən çox ali və orta ixtisas təhsilli mütəxəssis almışdı. Həmin dövrdə Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, Moskvanın, Leninqradın, Kiyevin, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocaqlarına 3500 azərbaycanlı gənc göndərilmişdi. Bu dövrdə hər il ali təhsil almaq üçün respublikadan kənara 800-dən artıq tələbə göndərilməsi ənənə halını almışdı. 1969-cu ildə respublikadan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılmış və onların da əksəriyyəti başqa millətlərdən idisə, 70-ci illərin axırlarında bu rəqəm hər il üçün 700-800 nəfər (80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər) təşkil etmiş və onların çoxu azərbaycanlı olmuşdur. 1981-ci ildə Moskva, Leninqrad, Kiyev və başqa şəhərlərdə 244 ixtisas üzrə təhsil alan azərbaycanlı oğlan və qızların sayı 3600 nəfəri ötüb keçmişdi.

**Azərbaycan xalqının bu gününü və gələcəyini qabaqcadan görən xalqımızın böyük oğlu Heydər Əliyev milli hərbi kadrların hazırlanmasına da böyük qayğı və diqqət göstərmişdi.** 1972-ci ildən başlayaraq hər il 300-400 nəfər azərbaycanlı gənc təhsil almaq üçün müxtəlif hərbi məktəblərə göndərilmiş və onların sayı 80-ci illərin əvvəllərində 800-1000 nəfərə gəlib çatmışdı. **Bütünlükdə götürüldükdə isə keçən əsrin qeyd edilən dövrdə keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində respublikamız üçün 18 min nəfərdən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdır. Ulu öndərimiz ölkəmizə ikinci dəfə rəhbərliyə qayıtdıqdan sonra həmin məsələdən bəhs edərək demişdir ki, o vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla Sovetlər İttifaqının müxtəlif yerlərinə göndərməklə həmin yerlərdə dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılmış və azərbaycanlılar hər yerdə yaşaya bilərlər. Bir şərtlə ki, onlar gərək millətini, dilini, torpağını, ana vətənini unutmasınlar.** Bu ulu öndərimizin öz vətəninə və millətinə nə qədər böyük məhəbbətlə bağlı olduğunu göstərir.

**Azərbaycana 34 il rəhbərlik etmiş Heydər Əliyevin ən nadir və böyük şəxsiyyət olmasını təsdiqləyən cəhətlərindən biri də ondan ibarətdir ki, o bütün məsələlərə - istər xarici və daxili siyasət, istərsə də böyük və kiçik məsələlərin həlli sahəsində olsun fərqi yoxdur, onlara həmişə elmi cəhətdən yanaşmağa üstünlük verərdi.** Təsadüfi deyildir ki, Heydər Əliyev hələ 1969-cu ildə respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş və daim ona qayğı göstərmişdir. O, Azərbaycan KP MK-nın məşhur avqust (1969-cu il) plenumunda respublika elminin inkişafında yaranmış ağır vəziyyətindən narahat olaraq demişdir: **"Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır.** Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir. Aspirantların xeyli hissəsi namizədlik dissertasiyalarını vaxtında hazırlaya bilmir. Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Onlar özlərinə tapşırılmış işin zərərinə olaraq dissertasiya yazır, bəzən bunun üçün hətta öz vəzifələrinin imkanlarından istifadə edirlər... **Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirənlər gəlsinlər".** Heydər Əliyevin həmin plenumda alimlərimizin qarşısında qoyduğu proqram xarakterli vəzifələr onlar tərəfindən birmənalı şəkildə qəbul edilərək yüksək vətənpərvərlik hissilə yerinə yetirilmişdir. Bunu ondan görmək olar ki, əgər 1945-1970-ci illəri əhatə edən 25 il ərzində Sovet elminin ən mühüm nailiyyətləri sırasına Azərbaycan Elmlər Akademiyası alimlərinin cəmi 170 əsəri daxil edilmişdisə, 1971-1980-ci illəri əhatə edən cəmi 10 il ərzində onların sayı 486-a çatmış və ya 2,8 dəfə artmışdı. Akademiyamızın alimləri Elmlər Akademiyasının varlığının birinci on ili ərzində (1945-1955-ci illərdə) cəmi 5 elmi nəticə əldə etmişlərsə, 1971-1975-ci illərdə bu nəticələrin sayı 96-nı ötüb keçmiş və ya 19,2 dəfə artmışdı. 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6 faiz artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdır.



Bütün bu yuxarıda deyilənlərin nəticəsi idi ki, SSRİ-nin dağılması ərəfəsində Keçmiş İttifaqın tərkibində olmuş respublikaların yalnız ikisi tam müstəqil olaraq öz iqtisadiyyatını idarə etmək imkanına malik idi: **Rusiya və Azərbaycan!** Həmin illərdə Azərbaycanın bu səviyyəyə qalxmasının əsas səbəbi isə keçən əsrin 70-80-ci illərdə ona məhz Heydər Əliyevin rəhbərlik etməsi ilə izah edilir. **1982-ci ilin sonunda Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsindən sonra, xüsusilə də** 1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş bəzi səriştəsiz adamların fəaliyyətsizliyi üzündən SSRİ vaxtı xüsusilə, keçən əsrin 70-80-ci illərində burada yaradılmış **böyük iqtisadi potensial ilbəil dağıdılıb talan edilməyə başlamış və 1991-1993-cü illərdə özünün kulminasiya mərhələsinə qədəm qoymuşdur. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi bu dövrdə:** "Vəziyyət elə təhlükəli xarakter almışdır ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yenidən səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. Beləliklə 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, həm də bu illərdə Azərbaycan **"Ölüm, ya olum" dilemması** qarşısında qalmışdı".

**Respublikamızın yenidən belə ağır vəziyyətə düşdüyü bir vaxtda** - 1993-cü ilin 15 iyununda xalqımızın tam əksəriyyətinin təkidli tələbi ilə Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gətirilməsi Azərbaycanı və bütünlükdə xalqımızı çıxılmaz fəlakətdən xilas etdi və onun **qurtuluşu başlandı.** Öz xalqından heç bir təmənnası olmayan bu böyük şəxsiyyət ikinci dəfə hakimiyyətə qayıdarkən **"Mənim həyatım xalqa məxsusdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəm. Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir"** - demiş və yenidən **respublikaya rəhbərlik etməyə başladığı ilk gündən** - Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatların və köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edilmiş, ölkəmiz Avropa Şurasının tam üzvlüyünə qəbul olunmuş; məşhur **"Əsrin müqaviləsi"** imzalanmış və neft strategiyası işlənib hazırlanmış, dünyanın bir çox super dövlətləri ilə neft kontraktları bağlanmış, **Qədim İpək yolu** bərpa olunmağa və bu məqsədlə **TRASEKA** proqramı həyata keçirilməyə başlamış, dünyanın bir çox ölkələri ilə iqtisadi əlaqələrimiz genişlənmiş və möhkəmlənmişdir. **Heydər Əliyevin ən böyük və tarixi xidmətlərindən biri də** dünyada analoqu olmayan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilməsi, Azərbaycanı Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin başlıca iştirakçısına cəlb edə bilməsindən ibarətdir. Onun Neft strategiyasının uğurla həyata keçirilməsinin nəticəsi idi ki, cəmi bir neçə il ərzində ölkəmizə 10 milyarddan çox ABŞ dolları cəlb edilmiş və həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycanda 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq 1996-cı ildə iqtisadiyyatda dirçəliş baş vermiş və **əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələmişdir.** 1991-1995-ci illərdə respublikamızda iqtisadi inkişafın ən əsas makroiqtisadi göstəricisi sayılan Ümumi Daxilli Məhsulun (ÜDM) real həcmi ildə 20-25 faiz, sənaye məhsulu istehsalı isə 15-20 faiz azaldığı halda, **1993-2003-cü illərdə** ÜDM istehsalı o vaxtın qiymətləri ilə 22,3 dəfə artaraq 157,1 milyard manatdan 35,1 trilyon manata, adambaşına düşən ÜDM-un həcmi isə 20,3 dəfə artaraq 21,3 min manatdan 4320,0 min manata, əhalinin pul gəlirlərinin məbləği 17,9 dəfə artaraq 135,5 milyard manatdan 24,2 trilyon manata, adambaşına düşən pul gəlirlərinin məbləği 16,2 dəfə artaraq 18,4 min manatdan 2983,4 min manata, iqtisadiyyatda məşğul işçilərin orta aylıq əmək haqlarının məbləği isə 174,1 dəfə artaraq 2,2 min manatdan 383,1 min manata gəlib çatmışdır. 1993-2003-cü illərdə respublikamızda 3 minə qədər yeni sənaye müəssisəsi açılmış və 2003-cü ilin əvvəlində onların sayı 5202-yə gəlib çatmışdı. Heydər Əliyevin həyata keçirdiyi "açıq qapı" siyasəti nəticəsində müqayisə edilən dövrdə ölkəmizdə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 3 dəfədən çox artmışdır. Respublikanın təkcə sənaye sahəsində 40 dövləti təmsil edən 167 xarici investisiyalı müəssisə fəaliyyət göstərmiş və onlar tərəfindən minlərlə iş yerləri açılmışdır.

**Heydər Əliyevin ən böyük xidmətlərindən biri də onun Azərbaycan elminə və onun məbədgahı sayılan Elmlər Akademiyasına daim hamilik etməsi, keçən əsrin 70-ci illərində bu elm məbədgahına dünya şöhrəti qazandırması, 90-cı illərin əvvəllərində isə onun bağlanmasının qarşısını alıb yenidən dirçəldilməsinə nail olmasıdır.** O, çox gözəl bilirdi ki, elmi inkişaf etdirmədən, ölkə iqtisadiyyatında istənilən nailiyyətlər əldə etmək, onun dinamik və səmərəli inkişafına nail olmaq qeyri-mümkündür. Ancaq çox təəssüflər olsun ki, 1992-1993-cü illərdə elə vəziyyət yaranmışdı ki, Elmlər Akademiyasını bağlamaq qərarına gəlmişdilər. Həmin illərdə və ondan sonrakı ilk dövrlərdə də maddi çətinliklər üzündən elmi işçilərin bir çoxu elmdən uzaqlaşaraq ticarət sahəsinə, kommersiya strukturlarına, özəl qurumlara və xarici ölkələrə işləməyə üz tutmuşlar. Ancaq minlərlə elm fədailəri, elm fanatikləri, əsl elmsevərlər, vətən elmini qoruyub saxlamaq arzusu ilə yaşayanlar bu müqəddəs elm ocağını tərk etməmiş və burada qalıb işləməyə üstünlük vermişlər. Çox keçmədi ki, ulu öndər Heydər Əliyev **1997-ci ilin 31 yanvarında prezident sarayında Elmlər Akademiyasının üzvləri ilə görüşdü və həmin görüşdə dedi ki: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir... Biz bununla fəxr edirik... Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir. Biz Akademiyanın hörmətini qoruyub saxlamalıyıq. Heç vaxt imkan verməK olmaz ki, Akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz!".** Bunu nəzərə alan ulu öndərimiz Heydər Əliyev ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması və s. sahələrdə bir sıra mühüm qərarlar qəbul etdirmişdir. Onun 2001-ci il 15 may tarixli **"Azərbaycan Milli Elmlər Akademiyası haqqında"** Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına ən yüksək ali dövlət elmi təşkilatı statusu verilməsi, 2001-ci il iyun ayında Akademiyanın üzvlərinin sayının artırılması: 2001-ci il avqustun 7-də Akademiyanın Naxçıvan bölməsinin yaradılması; 2003-cü il yanvar ayının 4-də Milli Elmlər Akademiyasının statusu, Nizamnaməsi və prezidentinin təsdiq edilməsi; 2004-cü ilin yanvar ayının əvvəllərində elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarının 5 dəfə; Akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə maaşlarının və bütünlükdə akademiyanın əməkdaşlarının maaşlarının nəzərəçarpacaq dərəcədə artırılması, akademiyanın maddi-texniki bazasının və əmək haqqı fondunun artırılması ilə bağlı Fərman və sərəncamları və nəhayət Heydər Əliyevin **"Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir, onu qoruyub saxlamaq lazımdır"** - deməsi buna canlı misaldır. **Məhz bütün bunlara görə də bu gün Akademiyamızın yaşayıb fəaliyyət göstərməsi üçün biz ulu öndərimiz Heydər Əliyevə minnətdarıq.**

**Ulu öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident cənab İlham Əliyev** də ölkəmizə rəhbərliyə başladığı ilk günlərdən elm adamlarına böyük qayğı ilə yanaşmış, alimlərimizin əməyinə yüksək qiymət vermiş, onların qayğısına qalmış və problemlərinin həllini daim diqqət mərkəzində saxlamışdır. **Ulu öndər Heydər Əliyevin yolunu yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin də bütün sahələrdə həyata keçirdiyi islahatların uğurla başa çatmasının əsl səbəbi əgər bir tərəfdən** onun qətiyyəti, rəhbərlik etmək qabiliyyəti və praqmatik düşüncəyə **malik olması ilə bağlıdırsa, digər tərəfdən** də həyata keçirdiyi islahatlarda **elmi yanaşmaya üstünlük verməsi və ulu öndərimizin ideyalarına söykənməsi ilə əlaqədardır.** Təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev 2003-cü ilin oktyabr ayının 1-də ölkə prezidentliyinə İlham Əliyevin namizədliyini irəli sürərkən **Azərbaycan xalqına müraciətində demişdir ki: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

*(davamı növbəti saylarımızda)*

**Şahbaz MURADOV,**
**AMEA-nın müxbir üzvü,**
**Əməkdar elm xadimi,**
**iqtisad elmləri doktoru, professor.**

# Müstəqil məhkəmə-hüquq sisteminin formalaşdırılması ulu öndərin adı ilə bağlıdır

**(əvvəli 1-ci səhifədə)**

Bu qanun 1960-cı ildə qəbul edilmiş qanuna nisbətən geniş və mütərəqqi sənəd olmaqla Azərbaycan SSR Ali Məhkəməsindən, Naxçıvan MSSR Ali Məhkəməsindən, Bakı şəhər Məhkəməsindən, DQMV-nin Vilayət Məhkəməsindən, rayon (şəhər) xalq məhkəmələrindən ibarət məhkəmə sistemini formalaşdırmışdır.

Məhz ulu öndərin təşəbbüsü ilə Naxçıvan MSSR-in adından "sovet sosialist" sözləri çıxarılmış, muxtar respublikanın dövlət rəmzləri haqqında tarixi qərar qəbul edilmiş və hazırkı dövlət rəmzlərindən olan üçrəngli bayrağımız dalğalanmağa başlamışdır. Eyni zamanda, muxtar respublikanın Ali Məclisi bu bayrağın Azərbaycan Respublikasının dövlət bayrağı kimi qəbul edilməsini Azərbaycan Respublikasının Ali Sovetinə tövsiyə etdi. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda atılan bu addım Qafqazda və Orta Asiyada SSRİ bayrağından imtina edilməsi yolunda ilk fakt idi.

Azərbaycan müstəqillik qazandıqdan sonra həyatımızın bütün sahələrində olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsi, tamamilə yeni hüquq və məhkəmə sisteminin formalaşması, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması günün tələbinə uyğun meydana çıxdı. Ancaq müstəqilliyimizin ilk dövründə Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi üzündən ölkədə heç bir islahat aparılmadı, sovet dövründən miras qalmış əski Konstitusiya saxlanıldı. Bu istiqamətdə sistemli işlərə 1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə respublika rəhbərliyinə yenidən qayıtdıqdan sonra başlanmışdır.

Müstəqil dövlətin həyatında Konstitusiyanın oynadığı rolu yüksək qiymətləndirən Heydər Əliyev səlahiyyətli tərkibdə Konstitusiya Komissiyası yaratdı və layihə ulu öndərin rəhbərliyi ilə geniş ictimaiyyətin müzakirəsinə verildi. 12 noyabr 1995-ci ildə Azərbaycanda çoxpartiyalı əsaslarla parlament seçkiləri keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın Əsas Qanunu-Konstitusiyası qəbul olundu. Əsas Qanunda Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat verilməsi; vətəndaş cəmiyyətinin qurulması; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən dünyəvi-hüquqi dövlətin bərqərar olunması, ədalətli sosial nizamın yaradılması və ən əsası, hakimiyyətin üç müstəqil qolaqanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi öz əksini tapmışdır. Qəbul edilmiş bu Konstitusiya köklü məhkəmə-hüquq islahatlarının aparılmasının da əsasını qoydu.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi məqsədilə 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquq İslahat Komissiyası, 1998-ci ildə isə dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış və 1997-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Məhkəmə və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyətinin müstəqil, yalnız qanun çərçivəsində fəaliyyət göstərməsinə imkan yaratdı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də Azərbaycan Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş "Konstitusiya Məhkəməsi haqqında" qanunun qəbul edilməsi oldu. Konstitusiya Məhkəməsinin təşkil olunması isə hüquqi-demokratik dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan xalqının müasir tarixində mühüm bir hadisə sayılmalıdır. Komissiya tərəfindən hazırlanmış "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Notariat haqqında" və sairə qanunların qəbulu xüsusi əhəmiyyətə malikdir.

Ölkəmiz 1996-1997-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "insan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandumdur. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qanunvericilikdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixində Azərbaycan Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və "Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" 1 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məhkəmələrin təşkil edilməsi, hakim vəzifələrinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyətləri dairəsində həyata keçirən məşvərətçi orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılmış və ölkə tarixində ilk dəfə olaraq hakim vəzifəsinə namizədin peşə hazırlığını, bilik səviyyəsini, hakim vəzifəsinə layiq olduğunu müəyyən etmək məqsədilə test üsulu ilə imtahan və müsahibə aparılması yolu ilə təyin edilməsi qərara alınmışdır. Təcrübədə sınanmış bu qaydaların nə dərəcədə effektiv olması özünü sübut etdi və 2000-ci ildə keçirilmiş test imtahanları zamanı hakim korpusunun 60 faizə qədəri təzələnmişdir. Təkcə bu fakt seçkinin ədalətli, şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyinə əmin olmaq üçün kifayətdir.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk dövlət olmuşdur. Yüksək humanizm və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər bir təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ulu öndər Heydər Əliyev demokratik dövlət quruculuğuna xidmət edən mütərəqqi hüquqi-siyasi islahatları davam etdirməklə yanaşı, həm də milli maraqlara xidmət edən siyasət xətti yürütmüş, ölkə və xalqımızın mənafeyini daim uca tutmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev hər zaman dövlət və milli maraqları əsas tutaraq düşünülmüş, çevik xarici siyasət aparmışdır. Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə rellaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yürüdən müstəqil Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmiş və ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna önəm verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə nüfuzlu tribunalardan böyük, diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin xarici siyasət doktrinası bu fəlsəfi dünyagörüşün mahiyyəti barədə real təsəvvürlərin ortaya çıxmasını şərtləndirir.

Siyasətdə və dövlət idarəçiliyində mütərəqqi ənənələrin, irs-varislik əlaqələrinin qorunub saxlanılması hər bir xalqın sabit və davamlı inkişafı baxımından vacibdir və böyük əhəmiyyət daşıyır. İrs-varislik əlaqəsi Azərbaycan xalqının milli düşüncə sistemində də möhkəm intişar tapmış, xalqımız tarix boyu inandığı, etibar etdiyi siyasəti ürəkdən dəstəkləyərək öz təminatlı gələcəyinə doğru inamla addımlamışdır. Ümummilli lider Heydər Əliyev bu mənada həm də böyük müdrikliklə müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi varis yetişdirmişdir. Böyük strateq 2003-cü ilin oktyabrında xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ölkədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində verdiyi bütün vədləri böyük səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Dövlət başçısı qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.

Cənab İlham Əliyevin inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük şövqlə həyata keçirdiyi islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinə və mükəmməl iş təcrübəsinə dəlalət edir. Dövlət başçısı praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır. 2003-2019-cu illərdə respublikada elmi əsaslara söykənməklə həyata keçirilən siyasət sabit iqtisadi və siyasi sistemin yaradılması, sosial vəzifələrin həlli, əhalinin sosial rifah halının, alıcılıq qabiliyyətinin yüksədilməsinə, cəmiyyətdə ictimai konsensusun əldə edilməsinə yönəlmişdir. Qazanılan uğurlar Azərbaycanın davamlı surətdə demokratiya yolunda uğurla irəliləməsinə, dünya miqyasında nüfuzunun yüksəlməsinə, özünüifadəsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan iqtisadiyyatı son on altı ildə özünün keyfiyyətcə yeni və həlledici mərhələsinə qədəm qoymuş, bir sıra sahələrdə kardinal islahatların aparılmasına siyasi, hüquqi və maddi zəmin hazırlamışdır. Respublikamızda formalaşmaqda olan yeni makroiqtisadi mühit-Ümumi Daxili Məhsulun artımı, milli iqtisadiyyatda sahibkarlar sinfinin mövqelərinin əsaslı şəkildə güclənməsi, beynəlxalq iqtisadi münasibətlər sisteminə uğurlu transformasiya, habelə qlobal enerji-kommunikasiya, innovasiya layihələrinin reallaşdırılması nəticə etibarilə demokratikləşmə və vətəndaş cəmiyyəti təsisatlarının sürətli inkişafına, tətbiq olunan mütərəqqi yeniliklərin vətəndaş şüurunda mənimsənilməsinə imkan yaratmışdır. Həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum səviyyədə əks etdirməsi dövlətin perspektiv inkişafına hesablanması möhtərəm Prezidentimiz İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşünə, çevik idarəçilik məharətinə, güclü əzm və qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirir.

Ümumilikdə, hər addımda ulu öndər Heydər Əliyevin yüksək ideallarına sadiqlik nümayiş etdirən dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətin ali məqsədi Azərbaycanın hər bir vətəndaşı üçün layiqli və firavan həyat tərzinin təmin olunması, ölkədə azad və demokratik cəmiyyətin qurulmasıdır. Bütün bu proseslərdə Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Bu gün Azərbaycan xalqı İlham Əliyevi ölkədə baş verən intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq öz həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun əhəmiyyətini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

**Zaur MƏMMƏDOV,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

# AZƏRBAYCANIN İNKİŞAFINA HƏSR OLUNMUŞ HƏYAT YOLU

**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu var. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratmışdır. Buna görə də ümummilli liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə aktualdır. Ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü də xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilən ulu öndər Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqın milli özünüdərki üçün zəruri tədbirlər həyata keçirməyə başladı, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırdı.**

Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan keşməkeşli və şərəfli yol Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründən başlayır. Ulu öndər respublikaya rəhbərliyinin ilk illərindən qazandığı uğurlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirib, fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq olub, idarəçilikdə mütərəqqi yeniliklərin tətbiqi, milli kadrların önə çəkilməsi yolu ilə cəmiyyətin normal inkişaf ahəngini təmin edib.

Siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, xalqın həyatında möhtəşəm dəyişikliyə nail olub, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görüb. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunan, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilib. Ona görə də 1969-cu ilin 14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir. Bu tarix ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi xalqımızın və ölkəmizin uğurlu gələcəyinin təmin olunması idi. Ulu öndərimizin Azərbaycan rəhbərliyinə gəlişi dövründə respublikada, sözün əsl mənasında, baxımsızlıq hökm sürürdü, iqtisadiyyat sürətlə geriləyir, sosial problemlər artırdı. Qısa bir müddətdə Azərbaycan inkişaf edərək respublikada keçirilən sosializm yarışlarının qalibinə çevrildi. Hazırda müstəqil Azərbaycanın bütün əhəmiyyətli sənaye və istehsal sahələri, elm və mədəniyyət mərkəzləri Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyevin yenidən ölkəmizə rəhbərlik etməsi, Azərbaycanı parçalanmaqdan qurtardı, müstəqilliyini itirməsinin, birmənalı olaraq, qarşısını aldı. Bunun nəticəsidir ki, paralel olaraq, ölkəmiz bir neçə problemi həll etməli oldu. Həm müstəqilliyini möhkəmləndirdi, həm yeni demokratik-hüquqi dövlət qurdu, həm ordunu möhkəmləndirdi, həm də beynəlxalq aləmdə mübarizə apardı. O, həmçinin, iqtisadiyyatda islahatlar apardı, Dağlıq Qarabağ məsələsində öz prinsipial mövqeyini qoruya bildi. **Onun qurduğu dövlət, göstərdiyi yol bu gün də uğurla davam etdirilir. Ən önəmlisi isə odur ki, bu siyasət bu günlə, indi ilə yekunlaşan, bitən deyil. Bu siyasəti bu gün və gələcəkdə də davam etdirən ulu öndər Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev uğurla aparır.** 1993-cü ilin ortalarında Azərbaycan bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz- üzə qalmışdı ki, xalqın təkidli xahiş və tələblərinə cavab olaraq yenidən hakimiyyətə qayıdan müdrik rəhbərimiz Heydər Əliyev əsl uzaqgörənliklə çox ciddi ictimai-siyasi problemlərə, iqtisadi çətinliklərə, düşmən təcavüzü, hərbi qarşıdurma ilə üzləşmiş ölkəmizin parçalanmasının, müstəqilliyinin itirilməsinin qarşısını aldı, ictimai-siyasi sabitliyi təmin etdi. Xarici ölkələrlə pozulmuş münasibətləri qaydaya salan, Azərbaycanı sülh, sabitlik, milli-dini tolerantlıq məkanına, fərqli mədəniyyətlərin dialoq meydanına çevirən ulu öndər ölkəmizin demokratik inkişaf yolunu müəyyənləşdirdi, Azərbaycan dövlətinin siyasi platformasını, iqtisadi inkişaf prinsiplərini, mənəvi və exlaqi konsepsiyalarını işləyib hazırladı. Ən əsası isə Azərbaycanın dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl bir dövlətçilik ideologiyası formalaşdırdı.

Ulu öndər Heydər Əliyev ölkədə elmin və təhsilin yüksəlməsinə, yeni ali məktəblərin və ali məktəblərdə yeni ixtisasların açılmasına, Azərbaycan gəncinin mükəmməl bilik alaraq cəmiyyətin fəal üzvünə çevrilməsinə hər cür şərait yaratdı.

Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, respublikada strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olundu, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırıldı. Böyük strateqin təkidi ilə keçmiş İttifaq rəhbərliyi respublikamızda bir sıra iri maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq verdi, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirildi. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan mühüm təməldir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyev o dövrün ağır şərtləri, məhdudiyyətləri çərçivəsində də xalqımızın gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni reallığa çevirmişdir. Çox sonralar nitqlərinin birində “Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da, sən xalqın, millətin üçün nə edirsən? Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı” - deyən Heydər Əliyev həmin dövrü Azərbaycanın inkişafında mühüm mərhələ kimi səciyyələndirmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Dahi şəxsiyyət neçə illərin sükunətini hərəkətə gətirmiş, milləti, milli düşüncəni oyatmış, güclü iqtisadi potensial yaratmışdır. Xalqımızın böyük oğlunun dövlət xadimi kimi formalaşmasında ötən əsrin 50-60-cı illəri həlledici rol oynamışdır. Dahi şəxsiyyət Heydər Əliyev müəyyən taktiki addımlarla mənsub olduğu xalq üçün strateji planları həyata keçirməyə çalışırdı. Həmin planlardan birincisi xalqı özünə tanıtdırmaq, onun etnokulturoloji həyatını bərpa etmək idi. Bəlkə də buna görə bir sıra tarixçilər və siyasətşünaslar haqlı olaraq qeyd edirlər ki, Azərbaycan xalqının iyirminci əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. Çünki həmin tarixdə siyasi hakimiyyətə gələn görkəmli dövlət xadimi Heydər Əliyev, sözün həqiqi mənasında, xalqın həyatında möhtəşəm dəyişikliyə və misilsiz inkişafa nail oldu. Ulu öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: “Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”.

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.

Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: “Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur”. 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, Böyük Vətən müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Bu məqamdan məharətlə istifadə edən ulu öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdi. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

İllər, əsrlər keçsə də, müdrik şəxsiyyət Heydər Əliyevin xidmətləri qədirbilən xalqımızın yaddaşında əbədi qalacaq, xatirəsi hər zaman dərin hörmət və ehtiramla yad ediləcəkdir. Çünki Azərbaycan xalqı müdriklik rəmzi olan o, qazanılan bütün nailiyyətlərimizin, doğma yurdumuzun adının yüksəkliklərə ucaldılmasının, sabitliyin, əmin-amanlığın, tərəqqi və inkişafın memarının ümummilli lider Heydər Əliyev olduğunu bilir. Məsəl var, dağın əzəməti ondan uzaqlaşdıqca daha aydın görünər...

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. O, bənzərsiz həyatı və zəngin fəaliyyəti ilə dünya tarixinə səhifələr yazmış qədim bir xalqın ümummilli lideridir.

Ulu öndər ömür mübarizə və qələbələrdən keçən, öz xalqının tarixi taleyində müstəsna rol oynayan, müqəddəs məramı ilə əbədiyyət qazanan dahi şəxsiyyətdir. Bu qüdrətli insan hər bir kəsin qəlbində sədaqəti, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və xalqına olan sevgisi ilə unudulmaz iz buraxmışdır. Onun adı ucalıq rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir. Hələ sağlığında əfsanələşmiş müdrik rəhbərin həyat və fəaliyyəti xalqına xidmət, dövlətə sədaqət meyarı olmuşdur.

Azərbaycana rəhbərlik etdiyi illərdə ulu öndərin məqsədi respublikanın tərəqqisi yolunda yorulub-usanmadan çalışmaq, xalqın köklü maraqlarını ardıcıl qorumaq, ölkəmizin çağdaş dünyada layiqli yerini təmin etmək olmuşdur. Dünya azərbaycanlılarının ümummilli lideri səviyyəsinə yüksəlmiş dahi şəxsiyyətin müəyyən etdiyi strateji yol xalqımızı daim uğurlara qovuşdurur. Heydər Əliyev xalqın milli ideyalar uğrunda səfərbər olunması prosesinə hələ ötən əsrin 60-cı illərinin sonunda - Azərbaycana birinci rəhbərliyi dövründə başlamışdı. Həmin dövrü Azərbaycanın milli intibah dövrü kimi də səciyyələndirmək olar. Sözün əsl mənasında məhz o illərdə Azərbaycan xalqı özünü tapdı. O zamanlar milli düşüncə sahibi olduqlarına görə təqib edilən ziyalıları ən çətin məqamlarda müdafiə etməyi qanı, canı, bütün ruhu ilə məhz Heydər Əliyev kimi milli köklərə bağlı dahi bir şəxsiyyət üzərinə götürə bilərdi və götürdü də. Müstəqil Azərbaycanın bu bünövrə üzərində qərar tutub gələcəyə doğru istiqamətlənməsini təmin etmək də məhz onun taleyinə yazılıbmış. Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan xalqı, dövləti üçün gördüyü işlər mahiyyət etibarilə onun sovet dövründə vətənimizin rifahı naminə ardıcıl fəaliyyətini tamamlayırdı. Üstəlik, Azərbaycan indi öz taleyinin, halal sərvətlərinin sahibinə çevrilmişdi və bu üstünlüyün verdiyi güc əvvəllər mümkünsüz görünən işlərin yerinə yetirilməsinə əlavə imkanlar yaradırdı.

Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazıldı. Ölkəmiz təhlükə və çətinliklər məngənəsindən azad olaraq sabitlik və inkişaf yoluna qədəm qoydu. Bu illər ərzində iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, dövlət idarəçiliyi mexanizmi yenidən yaradıldı, nizami ordu quruculuğu böyük vüsət aldı, genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirildi, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edildi. Həmçinin dövlətimiz dünya birliyində layiqli yerini tutdu, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək beynəlxalq nüfuz qazandı. Nəticə etibarilə, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, azad vətəndaş cəmiyyəti bərqərar edildi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə azərbaycançılıq ideyası şüurlara hakim kəsildi, milli birlik və həmrəylik təmin edildi. Bütün bu işlərin həyata keçirilməsində ona həmişə xalqına arxalanması, onun tükənməz gücünə və dəstəyinə bel bağlaması çox kömək etmişdir.

Ümummilli lider zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız ulu öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Əsası ümummilli lider Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bu dayanıqlı inkişaf Prezident İlham Əliyevin ulu öndərin ideya və əməllərinə sonsuz sədaqəti ilə davam etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi dünya miqyasında qəbul edilən reallıqdır. Qəti əminliklə deyə bilərik ki, dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvü olan Azərbaycanda əldə edilən bu uğurlar dövlət başçısının əzmi, iradəsi, müdrikliyi hesabına qazanılmışdır. Əldə etdiyimiz inkişafın ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil dövlətdir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim xalqın maraqlarına xidmət edir. Bu inkişafın başlıca yekunları dövlət başçısı İlham Əliyevin bu sözlərində bariz ifadəsini tapmışdır: “Azərbaycan bu illər ərzində həm öz vətəndaşlarına, həm də dünyaya sübut etdi ki, biz müstəqil ölkə, azad xalq kimi yaşayırıq və yaşaya bilərik!”.

Ulu öndərin qurduğu dövlət, göstərdiyi yol bu gün də uğurla davam etdirilir. Bu siyasəti bu gün və gələcəkdə də davam etdirən ulu öndər Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev uğurla aparır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı yaddaşımızda təkrarolunmaz siyasətçi, qüdrətli dövlət başçısı, əfsanəvi şəxsiyyət kimi qalacaqdır. Hər bir Azərbaycan övladının qəlbində onun unudulmaz xatirəsi daim yaşayacaqdır.

**Vəli ALBƏNDOV,**
**“Qarabağ-E.R” MMC-nin**
**baş direktoru, Əməkdar mühəndis,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**



# Xalqımızın müstəqilliyinin əsasını illər öncə formalaşdırmış Lider

**XX əsr milli tariximizin ən qüdrətli siması, müstəqilliyimizin memarı Heydər Əliyevin ölkəmizə ilk dəfə rəhbərliyə başlamasının 50-ci ildönümündə xalqımızın dahi oğlunun zəngin dövlətçilik irsinin və həyat fəlsəfəsinin bugünümüz və gələcəyimiz üçün əhəmiyyətini dərindən anlayırıq. Dünya miqyaslı ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş strateq kimi çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmiş, hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Xalqımız tarix boyu qazandığı dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuş, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir.**

1969-cu il iyulun 14-də - keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi plenumunun iclasında ümummilli liderin Azərbaycana rəhbərliyə seçilməsi respublikamızın tarixində yeni siyasi mərhələnin başlanğıcı olmuşdur. Dahi öndər ali kürsüyə yüksəldiyi ilk gündən bütün varlığı ilə sevdiyi xalqının intibahı və xoşbəxt gələcəyi naminə böyük fədakarlıqlar göstərmişdir. Çağdaş tariximizin 34 ili ümummilli liderin adı ilə bağlı olmaqla, xalqın taleyində şanlı və parlaq səhifəyə çevrilmişdir. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev elə ilk plenumda ana dilində nitq söyləməklə köhnə stereotipləri alt-üst etmiş, milli ideallara bağlı lider olduğunu yüksək kürsüdən nümayiş etdirmişdir. Zəngin təbii sərvətlərinə, istehsal potensialına baxmayaraq, Azərbaycanın keçmiş SSRİ-nin geridə qalmış respublikalar sırasına düşməsinin səbəblərini araşdıran Heydər Əliyev iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərin həyata keçirilməsini təmin etməklə peşəkar strateq və müdrik dövlət xadimi olduğunu sübuta yetirmişdir. Ümummilli lider respublikada, ilk növbədə, milli-mənəvi ruhu yüksəltməklə azərbaycanlıların öz tarixi ənənələrinə, köklərinə bağlılığı sürətləndirməyə çalışmış, xalqın müstəqil yaşaya bilməsi üçün lazım olan iqtisadi və maddi-texniki bazanın formalaşdırılmasına xüsusi diqqət yetirmişdir.

Heydər Əliyev Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunda çıxış edərkən respublika iqtisadiyyatının inkişafında müəyyən çətinliklərin, problemlərin olduğunu vurğulamış, xalq təsərrüfatının bir çox sahələrinin geri qaldığını qeyd etmişdir. Həmçinin vurğulamışdır ki, yeni mərhələdə qarşıda dayanan başlıca vəzifə səhiyyədə, tikintidə və kənd təsərrüfatında yaranmış vəziyyətin müfəssəl təhlili əsasında bütün zəhmətkeşləri vəzifələrinin yerinə yetirilməsindən ötrü səfərbərliyə almaqdan ibarətdir. Heydər Əliyevin bu cəsarətli fikirləri, əslində, həmin plenuma qədər sovet dövlətində guya heç bir problemin olmaması, milli respublikaların “böyük addımlarla irəliləməsi” ilə bağlı qulaqları yağır etmiş gurultulu şüarların təkzibi idi. Ümummilli lider qətiyyətli mövqeyi ilə sovet cəmiyyətinin bəzi naqisliklərini üzə çıxarmış, ictimailəşdirmişdi. Mərkəzin icazəsi olmadan hansısa sahədəki vəziyyətin təhlili, zəhmətkeşlərin hansısa vəzifələr ətrafında səfərbərliyə alınması kommunist mənafeyini xalqa, milli dövlətə bağlılıq hissindən daha yüksəkdə tutan insanlar üçün, sözün əsl mənasında, möcüzə kimi görünürdü. Beləleri heç cür inana bilmirdilər ki, Azərbaycanın birinci şəxsi belə açıq tənqidi fikirlərdən çıxış edə bilər. Heydər Əliyevin çıxışında sovet təbliğat maşını tərəfindən formalaşdırılan yanlış təsəvvürün tamam əksi vurğulanırdı: “Azərbaycanın bütün ittifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən geri qalması ciddi təşviş hissi doğurur. Aydındır ki, hər bir sahədəki çatışmazlıqların öz xüsusi səbəbləri vardır. Lakin təhlil göstərir ki, bir çox sahələr üçün səciyyəvi olan ümumi səbəblər də az deyildir. Bu, hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Odur ki, müəssisələrə rəhbərliyin səviyyəsi çox aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur”.

60-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı Azərbaycanda siyasi rəhbərliyə seçilən yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Ümummilli lider qısa müddətdə respublika iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinə nail olmaqla, Azərbaycanı xammal istehsalçısından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirə bildi. Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirdi. Sənayenin inkişaf səviyyəsinə görə respublikanın bütün bölgələrinin proporsional inkişafı yönümündə ardıcıl addımlar atıldı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin inkişafında kompleks tədbirlər görüldü. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə rəvac verdi.

Ümummilli liderin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutmuş, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipiallıq göstərmişdir.

70-ci illərin əvvəllərində ittifaq rəhbərliyi bu zavodun Zaporojye şəhərində inşa olunmasına qərar versə də, şəxsi nüfuzundan istifadə edən Heydər Əliyev Brejnevlə görüşərək həmin müəssisənin məhz Bakıda tikilməsi vacibliyini konkret dəlillərlə əsaslandıraraq son nəticədə istəyinə nail oldu. 1975-ci ilin dekabrında Bakı Məişət Kondisionerləri Zavodunun işə düşməsi məhz dahi öndərin böyük vətənpərvərliklə həyata keçirdiyi əzmkar fəaliyyətin məntiqi nəticəsi idi.

Müdrik liderin təkidi qarşısında keçmiş ittifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, tekstil, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq vermiş, paralel olaraq energetika və nəqliyyat kompleksi sürətlə inkişaf etmişdir. Həmin dövrdə sənayenin inkişafını müəyyənləşdirən tamamilə yeni sahələr meydana gəlmiş, müxtəlif elektrik cihazları istehsal edən zavodlar inşa olunmuşdur. Ümumilikdə 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi istifadəyə verilmişdir.

Həmin dövrün statistik məlumatları da təsdiqləyir ki, Heydər Əliyevin gərgin əməyi, qətiyyəti, fitri idarəçilik qabiliyyəti, vətənpərvərliyi sayəsində Azərbaycan keçmiş ittifaqın geridə qalmış əyalətindən bütün sahələrdə sürətlə inkişaf edən, yüksələn, özünü iqtisadi cəhətdən təmin edən qabaqcıl respublikaya çevrilmişdir. 1969-1982-ci illərdə xalq təsərrüfatının artım sürəti orta ittifaq səviyyəsini xeyli qabaqlamış, istehsal edilən milli gəlir 2,6, sənaye məhsulunun həcmi 2,7, kənd təsərrüfatı məhsulları 2,3 dəfə artmışdır. Bu illər ərzində miqyasına görə respublikamızda bütün keçmiş tarixi boyu yaradılmış potensialla müqayisə edilə biləcək güclü sənaye potensialı yaradılmışdır. Eyni zamanda, ittifaq miqyasında istehsal olunan neft-mədən avadanlığının 70, elektrik mühərriklərinin 12,2, elektrik qaynaq avadanlığının 10,5, məişət kondisionerlərinin 100, soyuducuların 5,7, pambıq ipliyinin 9,6, ipək xammalının 11,7 faizi və s. məhz Azərbaycanın payına düşmüşdür.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına nail olmuş, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsini təmin etmişdir. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlamış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Yeni yataqların kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər də məhz Heydər Əliyevin təşəbbüskarlığı nəticəsində mümkün olmuşdur. Ümummilli liderin qətiyyətli addımları nəticəsində ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri və digər müəssisələr yaradılmışdır. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan “Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması” planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır. Azərbaycan məhz Heydər Əliyevin fədakarlığı nəticəsində keçmiş SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan aparıcı dövlətlərdən birinə çevrilmiş, əldə olunan uğurlar isə bilavasitə respublikamızın inkişafına yönəldilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin də bəyan etdiyi kimi, əgər 70-ci illərdə Azərbaycanın təkmil neft sənayesi kompleksi formalaşmasaydı, müstəqillik dövründə yeni neft strategiyasını uğurla həyata keçirmək də çətin olacaqdı. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görərək bunun üçün iqtisadi-siyasi, intellektual baza formalaşdırmışdır. Həmin illərdə ulu öndərimiz milli kadr hazırlığına da xüsusi diqqətlə yanaşmış, dövlət idarəçiliyində azərbaycanlıların sayı artmış, onların xaricdə təhsil almasına yaxşı imkanlar yaranmışdır. Məhz o dövrdə xaricdə yüksək təhsil almış kadrlar bu gün də dövlət quruculuğu prosesinə öz töhfəsini verirlər.

Böyük müdriklik və iqtisadi hesablama əsasında müəyyənləşdirilmiş bu iqtisadi inkişaf konsepsiyasının özəyini üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatlar təşkil etmişdir: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadi dirçəlişə nail olmaq. Hər bir mərhələyə uyğun həyata keçirilən iqtisadi islahatlar nəticəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitlik təmin edilmiş, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başlamışdır. Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət etmişdir. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına etibarlı zəmin yaratmışdır.

Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır. 1997-2002-ci illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələsi diqqət mərkəzində saxlanılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın dinamik sosial-iqtisadi inkişafına təkan verən islahatlar 2003-cü ilin 15 oktyabrından ümummilli liderin layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının böyük əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublikamızın yeni sosial-iqtisadi təmayüllərini dəqiq şəkildə müəyyənləşdirməklə yanaşı, böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Prezident İlham Əliyevin fəaliyyətinin təhlili göstərir ki, konturları hələ Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir.

Ölkə rəhbərliyinə gəlişinin ilk günlərindən Azərbaycandakı yerli və xarici sahibkarların qüdrətli hamisinə çevrilmiş dövlət rəhbərimizin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına Azərbaycanda özəl sektor yeni inkişaf dönəminə qədəm qoymuş, sahibkarlığın inkişafına diqqət daha da artırılmışdır.

Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların müdafiəsi ilə bağlı daha təkmil mexanizmlər, sahibkarların etibarlı müdafiəsi, azad biznesin inkişafı üçün geniş fəaliyyət meydanının yaradılması, ictimai münasibətlər sistemində dövlət-sahibkar münasibətlərinin yeni tələblərə uyğun qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Əsas istiqamətlərindən biri də kiçik və orta sahibkarlığı inkişaf etdirməyə, investisiya mühitini daha da yaxşılaşdırmağa, sahibkarlıq sektorunda şəffaflığı artırmağa xidmət edir. Hazırkı islahatların əsas istiqamətləri sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün zəruri olan tədbirləri əhatə edir. Sahibkarlığın inkişafında ən mühüm rol oynayan amillərdən biri də sahibkarlıq sektorunda strateji inkişaf konsepsiyası kimi qiymətləndirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarıdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək məqsədi ilə Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nı, yeni dördüncü dövlət proqramını təsdiqləyib.

Milli iqtisadiyyatın əsas inkişaf istiqamətləri üzrə yüksək nailiyyətlər qazanan Azərbaycan regionun əsas güc mərkəzi kimi mövqeyini möhkəmləndirməkdə davam edir. Prezident İlham Əliyevin böyük islahatlar paketi çərçivəsində ilin əvvəlindən etibarən daha genişmiqyaslı mərhələyə qədəm qoyan davamlı islahatlar öz bəhrəsini verir. Məhz bu sosial-iqtisadi islahatlar sayəsində ölkə iqtisadiyyatının dayanıqlılığı daha da möhkəmlənir, biznes mühiti yaxşılaşır, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul edilir, ölkə əhalisinin rifah halı yüksəlir.

Prezident İlham Əliyevin sosial islahatlar proqramı nəticəsində Azərbaycanın sosial inkişafında davamlı irəliləyişlərlə xarakterizə olunan yeni keyfiyyət mərhələsinə keçildiyini göstərir və ölkəmizdə sosial firavanlığın təminatı istiqamətində mühüm addımların gələcəkdə də davam edəcəyinə əminlik yaradır.

**Əlixan ƏLİZADƏ,**
**“AZ Logistika & Management Services”**
**MMC-nin direktoru.**

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Gəncədə vətəndaşların müraciətlərini dinləyib



**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir. İyulun 12-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində qərb bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.**

AZƏRTAC xəbər verir ki, nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Gəncə şəhəri və Goranboy rayonunun sakinləri iştirak ediblər.

Vətəndaşların müraciətləri telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xətlərinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul və başqa məsələlərlə bağlı olub.

R.Quluzadə hər bir müraciəti dinləyib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

**AZƏRTAC**

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib





**İyulun 12-də Daxili İşlər Nazirliyində (DİN) 2019-cu ilin altı ayında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə bir qrup əməkdaşın dövlət mükafatlarına layiq görülməsini daxili işlər orqanlarına yüksək etimadın növbəti əyani ifadəsi olduğunu vurğulayıb.

Cari ilin birinci yarısında respublikada cinayətkarlıqla mübarizənin və ictimai təhlükəsizliyin təmin olunmasının vəziyyətindən danışan nazir bu sahədə əvvəlki dövrlərdə əldə olunmuş müsbət nəticələrin bir çox istiqamətlər üzrə inkişaf etdiyini, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunduğunu, kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər orqanlarının qarşısında duran vəzifələrin bütövlükdə yerinə yetirildiyini bildirib.

Sonra geniş məruzə ilə çıxış edən nazir V.Eyvazov hesabat dövründə daxili işlər və prokurorluq orqanları üzrə 12 min 411 cinayətin qeydə alındığını, bu cinayətlərin 88,5 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlərin təşkil etdiyini bildirib. Qəsdən adam öldürməyə cəhd cinayətlərinin 12,2 faiz, qəsdən sağlamlığa ağır zərər vurmaların 4,1 faiz, mülkiyyət əleyhinə cinayətlərin 8,1 faiz, xuliqanlıqların 25,1 faiz, ictimai yerlərdə baş vermiş cinayətlərin 35 faiz azaldığı, cinayətlərin açılmasının yüksək olmaqla 83,1 faiz təşkil etdiyi, məhkəmədən, istintaqdan və təhqiqat orqanlarından yayınan 1852 təqsirləndirilən şəxsin tutulduğu vurğulanıb. Bildirilib ki, ötən ilin altı ayı ilə müqayisədə cari ilin müvafiq dövründə ağır və xüsusilə ağır, şəxsiyyət əleyhinə olan, onlardan qəsdən adam öldürmələrin, adam öldürməyə cəhdlərin, dələduzluqların, soyğunçuluqların açılması xeyli yaxşılaşıb, keçmiş illərdən bağlı qalmış 163 cinayətin açılması təmin edilib.

Məruzəçi ötən altı ayda mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 424 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 65 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, qeyri-leqal dövriyyədən bütövlükdə 810 kiloqram narkotik vasitənin çıxarıldığını və 74 tona yaxın narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyini vurğulayıb.

Bununla yanaşı, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində Azərbaycan Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin cari ilin birinci yarısında da yerinə yetirildiyini nəzərə çatdıran V.Eyvazov nazirliyin rəhbərliyi tərəfindən 2749, o cümlədən respublikanın ayrı-ayrı şəhər və rayonlarında 680 vətəndaşın qəbulunun həyata keçirildiyini, vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əksəriyyətinin müsbət həllini tapdığını qeyd edib.

Məruzə ətrafında çıxış edən Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi, polis general-mayoru Elşən Kazımov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov və digərləri görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsanlar və onların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşların və hərbi qulluqçuların yüksək peşəkarlığı ilə fərqləndiklərini, eləcə də digər hüquq-mühafizə orqanları ilə birlikdə ölkədə daxili sabitliyin və asayişin qorunması işinin uğurla davam etdirildiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini qeyd edən Daxili İşlər naziri dövlətimizin başçısının ali etimadının şəxsi heyətin üzərinə böyük məsuliyyət qoyduğunu, bu etimadı doğrultmaq üçün ilk növbədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsini, hər bir struktur qurumda vətəndaş məmnunluğuna, insanlarla münasibətdə etik davranış qaydalarına ciddi əməl olunmasını, şəxsi heyətin peşəkarlığını artırmasını, yüksək mənəvi keyfiyyətlərə malik olmasını, bu istiqamətlərdə fəaliyyətin məqsədyönlü surətdə davam etdirilməsini tələb edib.

Daxili işlər orqanlarının şəxsi heyətinin digər dövlət strukturları ilə sıx qarşılıqlı əlaqədə ölkəmizdə həyata keçirilən asayişi mühafizə siyasətinin reallaşdırılmasına həmişə layiqli töhfələr verdiyini xatırladan Daxili İşlər naziri V.Eyvazov bütün şəxsi heyət adından əminliklə bildirib ki, bu iş gələcəkdə də böyük əzmlə davam etdiriləcək, aidiyyəti qanunvericilik aktlarından irəli gələn vəzifələr, qarşıya qoyulmuş bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetiriləcək. Əməkdaşlar və hərbi qulluqçular sabitliyin, əmin-amanlığın, dövlətin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək, 2019-cu ili də yüksək göstəricilərlə başa vuracaqlar.

Sonra Azərbaycan Polisinin 101 illik yubileyi münasibətilə təltif olunmuş bir qrup polis əməkdaşına dövlət mükafatları təqdim edilib.

**AZƏRTAC**

# Xarici ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumları ilə əməkdaşlıq uğurla davam etdirilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Prokurorluğu bir sıra ölkələrin prokurorluq, ixtisaslaşdırılmış antikorrupsiya və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələrin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu çərçivədə Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidməti ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub. Ötən ilin noyabrında Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə ölkəmizdə səfərdə olub. Səfər müddətində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidməti arasında "Korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Əməkdaşlıq əlaqələrinin inkişafının davamı olaraq əldə edilən razılığa əsasən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti monqolustanlı həmkarının dəvəti ilə iyulun 9-dan 11-dək bu ölkənin paytaxtı Ulan-Batorda səfərdə olub.

Səfər çərçivəsində iyulun 9-da Monqolustanın Böyük Dövlət Xuralının sədri Gombojavın Zandanşatar nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan G.Zandanşatar son dövrlər Monqolustan ilə Azərbaycan arasında mövcud tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən məmnunluğunu ifadə edib. Mövcud müsbət tendensiya fonunda ixtisaslaşmış antikorrupsiya və digər cinayət təqibi orqanlarının birgə əməkdaşlığının strateji konturları və inkişaf perspektivlərinə toxunan Böyük Dövlət Xuralının sədri çıxışında, həmçinin qarşılıqlı əlaqələrin cinayətkarlığın bütün növ təzahürlərinə qarşı mübarizədə hər iki tərəfin fəaliyyətinə mühüm töhfələr verəcəyinə ümidvar olduğunu bildirib.

Nümayəndə heyətinin rəhbəri Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın qarşılıqlı etimad və dostluq münasibətlərinin xalqlarımız arasında dərin tarixi köklərə söykənən siyasi, iqtisadi və mədəni əlaqələrin daha da inkişafı üçün platforma təşkil etdiyini vurğulayaraq, ölkəmizdə korrupsiyaya qarşı qətiyyətli mübarizə tədbirləri barədə ətraflı məlumat verib. K.Əliyev dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn tövsiyə və tapşırıqların icrasının ölkəmizdə qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi prosesinə mühüm dəstək verdiyini xüsusi qeyd edib.

Daha sonra Azərbaycan nümayəndə heyəti ilə Monqolustanın Baş prokuroru Jarqalsaikxan Banzraqçiyin arasında ikitərəfli görüş keçirilib.

Görüşdə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman barədə ətraflı məlumat verən K.Əliyev bu sənədin ölkə ictimaiyyəti tərəfindən korrupsiya ilə mübarizə sahəsində aparılan mühüm institusional islahatlar fonunda atılmış növbəti mütərəqqi addım kimi qiymətləndirildiyini bildirib. Bununla yanaşı, K.Əliyev geniş hüquqi tənzimləmə dairəsi baxımından bir çox sahələri əhatə edən sənədin prokurorluğun fəaliyyəti üçün də mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə də məlumat verib.

Nümayəndə heyətinin rəhbəri K.Əliyev, eləcə də Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) vitse-prezidenti qismində BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan və 100-dən çox dövləti özündə birləşdirən BPA-nın əsas istiqamətləri və fəaliyyəti ilə əlaqədar məsələlərə də toxunub. K.Əliyev bununla əlaqədar Monqolustan Baş Prokurorluğu ilə BPA arasında qurulmuş əməkdaşlıq münasibətlərinin ayrı-ayrı sahələri, habelə Assosiasiyanın səmərəli fəaliyyətindən daha çox faydalanmaq üçün mövcud imkanlar barədə fikir mübadiləsi aparıb.

Sonra nümayəndə heyəti Monqolustanın Ədliyyə və Daxili İşlər naziri ilə görüşüb.

Söhbət zamanı K.Əliyev Azərbaycanda analoji qurumların struktur və funksiyaları, habelə bu sahələrin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar barədə məlumat verib.

Qarşı tərəf ölkəmizin bu sahədə təcrübəsinə böyük maraq göstərib və qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsi imkanları nəzərdən keçirilib.

Tədbirin gündəliyinə uyğun olaraq, iyulun 9-da ölkəmizin nümayəndə heyəti Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəisi Daşdavaa Zandraa ilə görüşüb. Xidmətin inzibati binasında keçirilən görüşdə tərəflər arasında müasir dövrdə transmilli xarakter daşıyan korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional səylərin daha da artırılması yönündə geniş fikir və təcrübə mübadiləsi aparılıb. Həmçinin bu sahədə əməkdaşlığın dərinləşdirilməsi üçün hər iki ölkənin daxili mübarizə resurslarını gücləndirmələri ilə yanaşı, beynəlxalq müstəvidə də vahid və qətiyyətli mövqedən çıxış edilməsinin vacibliyi vurğulanıb. Tədbirdə, eləcə də iki qurumun fəaliyyətinə dair təqdimatlar nümayiş etdirilib.

K.Əliyev, həmçinin Monqolustanın Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin mətbuat xidmətinə qurumu maraqlandıran suallar ətrafında müsahibə verib.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Monqolustanın milli Naadam bayramında iştirak edərək bu ölkənin milli mədəniyyəti və adət-ənənələri ilə yaxından tanış olub.

**AZƏRTAC**

# Ədliyyə nazirinin müavini İsmayıllıda vətəndaşları qəbul edib



**Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlətimizin başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 12-də Ədliyyə nazirinin müavini Vilayət Zahirov İsmayıllı rayonunda vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə və müvafiq qurumlara tapşırıqlar verilib.

Vətəndaşlar rayon sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Azərbaycan ombudsmanı Avropa Şurasının insan hüquqları üzrə komissarı ilə görüşüb



**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müvəkkil 2001-ci ildən Avropa Şurasının üzvü olan Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrası istiqamətində kompleks tədbirlər həyata keçirdiyini, həmin öhdəliklərdən biri kimi ölkədə ilk Ombudsman təsisatının yaradıldığını qeyd edib. Bildirib ki, ötən müddət ərzində bu qurum özünü səmərəli hüquq müdafiə mexanizmi kimi təsdiq edib, Avropa Şurası ilə səmərəli əməkdaşlıq əlaqələri qurulub və insan hüquqları sahəsində birgə layihələr həyata keçirilir.

Görüşdə qonağa bərabərlik və ayrı-seçkiliyə məruz qalmamaq hüququnun təmin olunması sahəsində ombudsmanın həyata keçirdiyi çoxşaxəli fəaliyyəti barədə geniş məlumat verilib.

Müvəkkil habelə qanunvericiliyin təkmilləşdirilməsinə dair Milli Məclisə, habelə dövlət qurumlarına təkliflər verildiyini, həmçinin Konstitusiya Məhkəməsinə çoxsaylı sorğular ünvanladığını, nəticədə Plenum tərəfindən müvafiq qərar və qərardadların qəbul edildiyini söyləyib. Vurğulanıb ki, fəaliyyəti dövründə müvəkkilin insan hüquqlarının səmərəli təmininə yönəlik 700-dək təklifi səlahiyyətli dövlət qurumlarına təqdim edilib, onların böyük əksəriyyəti artıq təmin olunub. E.Süleymanova qonağa qaçqın və məcburi köçkünlərin, həmçinin girov və əsir götürülmüş şəxslərin hüquqlarının müdafiəsi istiqamətində görülən işlər haqqında ətraflı məlumat verib.

Ermənistanın Silahlı Qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevin məsələsinin hələ ilk vaxtlardan diqqətdə saxlanıldığı vurğulanıb. Ombudsman məcburi köçkünlərin, o cümlədən gənclərin öz torpaqlarına qayıtmaq arzusunun onların genetik yaddaşı ilə bilavasitə bağlı olduğunu bildirib.

Sonda qonağı maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

# Bakıda Fransanın milli bayramı qeyd edilib






**Fransanın milli bayramı münasibətilə iyulun 12-də Bakıda rəsmi qəbul təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Fransanın dövlət himnləri səsləndirilib.

Fransanın Azərbaycandakı səfiri xanım Aurelia Buşez çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışıb. Son illərdə ölkələrimiz arasında əlaqələrin möhkəmləndiyini qeyd edən səfir bildirib ki, yüksək səviyyəli səfərlər bu işdə mühüm rol oynayıb. Fransa ilə Azərbaycan arasında siyasi dialoqun daha da gücləndiyini vurğulayan Aurelia Buşez Azərbaycan Prezidenti İlham Əliyevin Parisə son səfərinin regiondakı vəziyyətlə bağlı fikir mübadiləsi aparmaq baxımından önəmli olduğunu deyib.

Ölkəmizin Xəzər regionunda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını deyən diplomat Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihələrinə toxunub. O, bu layihələrin Avropa ilə Asiyanın birləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Azərbaycanın Xarici İşlər Nazirinin müavini Xələf Xələfov Fransa xalqını milli bayram münasibətilə Azərbaycan hökuməti adından təbrik edib və ən xoş arzularını çatdırıb. X.Xələfov qeyd edib ki, Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrindən biridir. Azərbaycanın Fransa ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini deyən nazir müavini hələ müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyevin ilk xarici səfərini məhz Fransaya etdiyini xatırladıb.

Xələf Xələfov Azərbaycan ilə Fransa arasında sıx dostluq münasibətlərinin olduğunu, əlaqələrin bütün sahələri əhatə etdiyini bildirib. Qeyd olunub ki, iki ölkə arasında çox fəal siyasi dialoq aparılır. Azərbaycanın Xarici İşlər Nazirinin müavini son illərdə ölkələrimiz arasında humanitar əlaqələrin genişləndiyini diqqətə çatdıraraq, elm və təhsil, mədəniyyət və iqtisadiyyat sahələrində əməkdaşlığın artıq real nəticələr verdiyini vurğulayıb.

**AZƏRTAC**

# ŞƏHİD POLİSLƏRİN XATİRƏSİ BÖYÜK EHTİRAMLA ANILIB





Ötən il iyulun 10-da radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərmiş, bu qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini ləyaqətlə yerinə yetirən iki polis zabiti - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olmuşlar. Şəhid olmuş polis polkovniki İlqar Balakişiyevin və polis polkovnik-leytenantı Səməd Abbasovun xatirəsi anılıb. Şəhidlər Xiyabanında baş tutan anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov, Daxili İşlər Nazirliyinin Şəxsi Heyət üzrə İş İdarəsinin rəisi, polis polkovniki Rahib Qarayev və hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid polislərin ailə üzvləri iştirak ediblər. Anım mərasimində şəhid polislərin məzarları önünə əklil qoyulub, üzərlərinə tər çiçəklər düzülüb, ruhlarına dualar oxunub.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılov şəhid olmuş polis polkovniki İlqar Balakişiyev və polis polkovnik-leytenantı Səməd Abbasovun ailə üzvləri ilə görüşüb, başsağlığı verib, onların problemləri və qayğıları ilə maraqlanıblar.

Anım mərasimindən sonra şəhid olan polis əməkdaşlarının xatirəsinə ehsan süfrəsi təşkil olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Sənaye Bitkilərinin İstehsalı və Emalı Kooperativi yaradıldı





**Bu günlərdə İmişli rayonunda Sənaye Bitkilərinin İstehsalı və Emalı Kooperativinin təsis konfransı keçirildi. Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül çələngi qoyularaq əziz xatirəsinin ehtiramla yad edilməsindən sonra başlayan tədbirdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev, İmişli Rayonu İcra başçısının birinci müavini Səfa Ağayev, "Azərsun Holdinq"in İdarə Heyətinin üzvü Əhməd Gözəl, Kənd Təsərrüfatı Nazirliyinin Fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsinin müdiri Araz İsmayılov, digər rəsmi şəxslər və fermerlər iştirak edirdilər.**

Tədbirdə Sənaye Bitkilərinin İstehsalı və Emalı Kooperativinin fermerlərin və emalçıların fəaliyyətinə verəcəyi töhfələr və yaranan perspektivlər barədə ətraflı məlumat verildi. Təsis yığıncağında çıxış edən Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev iştirakçıları nazir İnam Kərimovun adından salamlayaraq ölkə başçısı cənab İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısı nəticəsində böyük nailiyyətlərin əldə olunduğunu bildirdi. Daha sonra kooperativlərin üstünlükləri barədə danışan nazir müavini bu yeniliyin fermerlərin fəaliyyəti üçün çox səmərələi olacağını qeyd etdi. O, Kooperativə üzv olacaq fermerlərin daimi alıcı imkanı və ölkə başçısı tərəfindən yeni imzalanan "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən 10 faiz daha artıq subsidiya alacaqlarını, aqrotexniki dəstəklə təmin ediləcəklərini, torpaqların analizi zamanı əlavə güzəştlər əldə edəcəklərini bildirdi.

**Sonra "Azərsun Holdinq"in İdarə Heyətinin üzvü Əhməd Gözəl** çıxış edərək Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Abdolbari Goozalın adından qonaqları salamlayaraq kooperativin fəaliyyətinin bütün tərəflər üçün çox səmərəli olacağını bildirdi. Şəkər çuğunduru



emalı nəticəsində melas və yanqar kimi yan məhsulların da əldə olunduğunu qeyd edən "Azərsun" rəsmisi ölkəyə melas idxalının tamamilə dayandırıldığını və çörək mayası istehsalının əsas komponenti olan bu məhsulun yerli məhsul hesabına təmin edildiyini bildirdi. Sənaye Bitkilərinin İstehsalı və Emalı Kooperativinin yaradılması təşəbbüsünün faydalı olduğunu bildirən Əhməd Gözəl bütün üzvlərə uğurlar arzu etdi.

Kənd Təsərrüfatı Nazirliyinin Fermerlər, assosiasiyalar və kooperativlərlə iş şöbəsinin müdiri Araz İsmayılov çıxış edərək kooperativin iş mexanizmi barədə məlumat verərək xərclər və risklərin bir neçə subyektə bölündüyü üçün kooperativə qoşulacaq şəxslərin daha çox qazanc əldə edəcəklərini bildirdi. Onun sözlərinə görə, satınalmanın vahid mərkəzdən həyata keçirilməsi, yeni texnologiyaların əlçatanlığı və kooperativin birlik kimi kredit resurslarından daha rahat istifadə etmə imkanı bütün üzvlər üçün yeni imkanlar və daha rahat fəaliyyət şəraiti yaradacaq.

"Azərsun Holdinq"in Korporativ Əlaqələr üzrə Direktoru İlham Abdullayev də çıxışı zamanı kooperativin müsbət tərəfləri barədə məlumat verərək bütün üzvlərə uğurlar arzuladı.

Sonda "Azərsun Holdinq"in baş aqronomu Rövşən Əliyev çuğundur sahələrinin ildən-ilə genişləndiyini və kooperativin işə başlamasının hər kəsə əlavə üstünlüklər verəcəyini bildirdi.

Təsis yığıncağının sonunda seçki keçirilərək fermerlər arasından Sənaye bitkilərinin istehsalı və emalı kooperativinin İdarə Heyəti və Təftiş Şurasına üzvlər seçildi.

Qeyd edək ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xeyir duası ilə inşasına başlanmış İmişli Şəkər Zavodu 2006-cı ildə cənab Prezident İlham Əliyevin iştirakı ilə açılaraq istismara verilib. Ölkəmizin qeyri-neft sektorunun ən böyük müəssisələrindən biri olan bu müəssisə "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq insanların məşğulluğunun artırılması və sosial-rifah halının yüksəlməsində mühüm rol oynayır. Son illər ərzində, İmişli Şəkər Zavodunda illik 400 -450 000 ton şəkər çuğunduru emal edilir ki, bu da ölkənin şəkər tələbatının 11%-dən çoxunun yerli məhsul hesabına təmin edilməsinə şərait yaradır. Eyni zamanda, şəkər çuğunduru emalı zamanı yan məhsul kimi yaranan şəkər yonqarı mühüm yem bazası təşkil etməkdədir. Qeyd olunmuş həcmdə çuğundurdan təqribən 3000 baş südlük cins inəyin bəslənməsi üçün tələb olunan yem vahidi ödənilə billər.

Şəkər çuğundurunun əkini və becərilməsi dövri xarakter daşıyır, yəni eyni ərazidə çuğundur 4 ildən tez olmamaqla əkilməlidir. Həmçinin çuğundurdan sonra əkin planı düzgün tərtib edildiyi təqdirdə əkilən dənli bitkilərin məhsuldarlığı minimum 30-40% daha yüksək olur. Çuğundurun da daxil olduğu rotasiyalı əkin planına əməl edilərsə, burada həm əkinçilər üçün daimi iş, həm də əvvəlcədən proqnozlaşdırıla bilinən emal məqsədli daimi məhsullar əldə olunacaq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Ulu Öndərin hakimiyyətə gəlişi Azərbaycan tarixində uzunmüddətli və sürətli inkişafın əsasını qoyub





**İyulun 12-də Sumqayıtda yerləşən YAP Qubadlı rayon təşkilatının inzibati binasında ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50-ci ildönümü münasibətilə yığıncaq keçirilib.**

AZƏRTAC xəbər verir ki, Qubadlı Rayon İcra Hakimiyyətinin və YAP Qubadlı rayon təşkilatının birgə təşkilatçılığı ilə reallaşan tədbirdə rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının, idarə, müəssisə, YAP ərazi ilk partiya təşkilatlarının nümayəndələri, fəal gənclər iştirak ediblər.

Əvvəlcə iştirakçılar Ulu Öndərin binanın foyesindəki büstü önünə gül dəstələri qoyub, əziz xatirəsini ehtiramlar yad ediblər.

Çıxışlarda Ümummilli Liderin 1969-cu ilin iyul ayının 14-də Azərbaycana rəhbər təyin edilməsini taleyin xalqımıza bir bəxşişi kimi dəyərləndirilib. Bildirilib ki, bu hadisə ölkəmizin tarixində uzunmüddətli və sürətli inkişafın əsasını qoyub. Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyev Azərbaycanı düşmüş olduğu ağır vəziyyətdən çıxarmaq üçün qətiyyətli addımlar atıb. Ulu Öndər 1969-1982-ci illərdə milli kadr hazırlığı məsələsinin həllinə, təhsil şəbəkələrinin genişləndirilməsinə, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə nail olub. Qeyd edilib ki, 1969-1982-ci illərdə ümummilli lider Heydər Əliyev bütün sahələrdə digər sovet respublikaları ilə müqayisədə dəfələrlə geridə qalan ölkəmizi dirçəltmək missiyasını uğurla icra edib.

Sonra tədbirdə "Heydər Əliyev və 1969-1982-ci illərdə Azərbaycan", "Heydər Əliyev və 1982-2003-cü illərdə Azərbaycan" adlı məruzələr dinlənilib.

Sonda bir qrup şəxsə YAP Qubadlı rayon təşkilatının Fəxri fərmanları və yeni üzvlərə üzvlük vəsiqələri təqdim olunub.

**AZƏRTAC**

# Müddətli həqiqi hərbi xidmətə çağırış davam edir





"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin Sərəncamına müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış davam edir.

Gəncə şəhər Kəpəz rayonunda keçirilən tədbirin iştirakçıları və çağırışçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini yad ediblər. Sonra dahi şəxsiyyətin adını daşıyan mərkəzdə ulu öndərin həyat və fəaliyyətinə dair stendlərlə tanış olublar.

Mərasimdə respublikamızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

**SHXÇDX Kəpəz rayon şöbəsinin rəisi, polkovnik-leytenant Elşən Abbasov** hərbi xidmətə yola düşmələri münasibətilə çağırışçıları təbrik edib. Ulu öndər Heydər Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında tarixi xidmətlərindən danışıb.

Respublika Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının Gəncə şəhər şöbəsinin sədri Yusif Məmmədov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Kəpəz rayon filialının sədri Məmməd Rəhimov çağırışçılara müqəddəs vəzifələrini yerinə yetirməkdə uğurlar arzulayıblar.

Tədbir hərbi orkestrin iştirak etdiyi konsert proqramı və "N" saylı hərbi hissənin əsgərlərinin nümunəvi çıxışları ilə davam etdirilib.

* * *

Oğuz rayonunda keçirilən mərasimdə çıxış edən **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Oğuz rayon bölməsinin rəisi, polkovnik-leytenant Zöhrab Camalov** Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə hərbi sahədə həyata keçirilən islahatlar nəticəsində ordumuzun daha da gücləndiyini, hərbçilərimizin döyüş ruhunun yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində görülmüş işlərdən söz açıb. Ölkəmizin vətənpərvər gəncliyinin Vətən torpaqlarımızın müdafiəsinə daim hazır olduğunu qeyd edib.

Valideynlər adından çıxış edən Rövşən Ağababayev övladlarını hərbi xidmətə böyük sevinc hissi ilə yola saldıqlarını, onların Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi şərəfli bir missiyanı yerinə yetirəcəkləri ilə fəxr etdiklərini ifadə edib. Çağırışçı Zakir İsmayılov bu günün onlar üçün əlamətdar olduğunu bildirərək şanlı ordumuzun sıralarında nümunəvi xidmət edəcəklərinə yoldaşları adından söz verib.

Tədbirin sonunda gənclər Azərbaycan bayrağının altından keçərək müddətli həqiqi hərbi xidmətə yola düşüblər.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# UNEC-də "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın təqdimatı keçirilib

UNEC-də Azərbaycan Dövlət İqtisad Universitetinin professorları tərəfindən hazırlanan və ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin 50-ci və anadan olmasının 96-cı ildönümünə həsr olunan "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə təqdimatı keçirilib.

Tədbirdə UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin professor-müəllim heyəti ilə yanaşı, millət vəkilləri, dövlət rəsmiləri və digər qonaqlar iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyası sahəsində əldə olunan uğurların məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib, bu gün də həmin strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyində qarşıya qoyduğu vəzifələrdən söz açan rektor, ulu öndərin tövsiyələrinin UNEC-in inkişaf strategiyasının prioritet istiqamətləri kimi müəyyən olunduğunu qeyd edib. UNEC-in 90 illik yubileyində ulu öndərin verdiyi tapşırıqlara və bu tapşırıqların icrasına həsr olunan yeni kitabın hazırlanacağını deyib. Ə.Muradov monoqrafiyanın əhəmiyyətindən söz açaraq, ümummilli lider Heydər Əliyevin zəngin irsinin hələ uzun illər tədqiq ediləcəyini vurğulayıb. Ulu öndərinin irisinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi missiyasını UNEC-in öz üzərinə götürdüyünü bildirib.




Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafındakı tarixi xidmətlərindən söz açıb. UNEC professorlarının hazırladığı dəyərli monoqrafiyada ulu öndərin iqtisadi inkişaf strategiyasının bütün məqamlarının dərin təhlil olunduğunu bildirib.

AMEA-nın müxbir üzvü, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Akif Musayev Heydər Əliyevin müasir Azərbaycanın sosial-iqtisadi inkişafı, maliyyə institutlarının formalaşdırılması, ölkəmizdə tədris-təlim texnologiyalarının tətbiqi, xalq təsərrüfatının müxtəlif sahələrində və funksional bölmələrində iqtisadi islahatların aparılması, əhalinin sosial müdafiəsi, optimal vergi siyasəti, xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. Monoqrafiyada ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasını əks etdirən və mühüm faktlara əsaslanan məqalələrin yer aldığını vurğulayıb.

UNEC-in kafedra müdiri, professor Məhiş Əhmədov monoqrafiyada Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetlərinin sistemli şəkildə təhlil olunduğunu bildirib. Monoqrafiyanın müasir Azərbaycanın davamlı və dinamik sosial-iqtisadi inkişafının mənbələrini, hərəkətverici qüvvələrini daha dərindən və aydın dərk etməyə imkan verdiyini diqqətə çatdırıb.

Tədbirdə AMEA-nın müşaviri, akademik Əli Abbasov ulu öndər Heydər Əliyevin elm və təhsilin, bilik və informasiya resurslarının inkişafında, eləcə də insan kapitalının formalaşmasındakı rolundan bəhs edib. UNEC professorlarının hazırladıqları monoqrafiyada iqtisadiyyatın bütün sahələri ilə yanaşı, bilik və informasiya resurslarına əsaslanan yeni iqtisadiyyatın qurulması barədə məqalələrin yer aldığını, həmçinin çox mühüm nəticələr əldə olunduğunu qeyd edib. Akademik monoqrafiyanı ulu öndər Heydər Əliyevin sosial iqtisadi siyasətinə verilən qiymət kimi dəyərləndirib.

Tədbirdə çıxış edən millət vəkilləri Vahid Əhmədov, Rüfət Quliyev, UNEC-in professoru Arif Şəkərəliyev ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əhəmiyyətindən danışıblar. UNEC alimlərinin hazırladığı monoqrafiyanın bu strategiyanın təbliğ olunması istiqamətində dəyərli töhfə olacağını deyiblər.

# Torpaqlardan istifadəyə nəzarətlə bağlı treninqlər

Əmlak Məsələləri Dövlət Komitəsi torpaqlardan istifadə və onların mühafizəsinə dövlət nəzarətinin daha da səmərəli təşkili üçün yerlərdə torpaq müfəttişlərinə treninqlərin keçirilməsinə start verib. Bunun üçün torpaq müfəttişlərindən ibarət işçi qrupu yaradılıb. İlk treninqlər Bakı, Sumqayıt şəhərlərində, Şamaxı, Xaçmaz rayonlarında keçirilib.

Təlimlər zamanı torpaqlardan istifadənin qanunvericilik tələblərinə uyğun həyata keçirilməsi ilə bağlı məlumat verilib, inzibati xətalara dair protokolların tərtib edilməsi və qərarların qəbul edilməsi zamanı həmin tələblərə riayət olunması məsələlərindən bəhs edilib.

Bildirilib ki, torpaq müfəttişləri ərazilərin özbaşına tutulması (zəbt edilməsi) hallarının qarşısının alınması ilə bağlı genişmiqyaslı işlər aparmalı, baş verən neqativ hallar barədə dövlət qurumlarını məlumatlandırmalıdır. Bundan başqa, bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, o cümlədən yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq mülkiyyətə, istifadəyə, icarəyə dair rəy verilməsində qanunvericiliyin tələblərinin gözlənilməsini təmin etməlidirlər.



Müfəttişlərin əldə etdiyi informasiyalar torpaqlarla bağlı məlumat bazasının yaradılmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, torpaqlarda baş vermiş dəyişikliklər barədə məlumatlar mütəmadi olaraq yenilənməklə bazaya ötürüləcək.

Qeyd edilməlidir ki, aparılan monitorinq və reydlər nəticəsində torpaqların təyinatdan kənar və əsassız istifadə edilməsi, kateqoriyasının özbaşına dəyişdirilməsi faktları üzə çıxarılır. Müvafiq qurumlar tərəfindən mühafizə zonasına düşən torpaqların qanunsuz olaraq fiziki və ya hüquqi şəxslərə ayrılması, bələdiyyələr və vəzifəli şəxslər tərəfindən təyinatına zidd olaraq torpaqla bağlı qərarların verilməsi halları müəyyənləşdirilir. Məlum olur ki, bəzi hallarda kənd təsərrüfatı təyinatlı torpaqlar icarəyə götürülüb, lakin istifadə edilmir və boş saxlanılır. Bir sıra hallarda torpaqlar birbaşa məqsədləri ilə deyil, yaşayış, istehsalat, sənaye məqsədləri üçün istismar olunur. Kənd təsərrüfatına yararlı torpaq sahəsinin münbit qatı korlanaraq orada tikinti işləri aparılır.

Bölgələrdə torpaq müfəttişlərinə keçirilən təlimlər gələcəkdə də davam edəcək.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# SUMQAYITLA HƏMYAŞID JURNALİSTİN HƏYAT YOLU

**Ömür yolları uzun və ya qısa olsa da dünyaya göz açan hər bir insan sonadək qət etdiyi yolla kimliyini sübut edir. Yolun əzəlində və sonundakı isə Ulu Tanrıdan insanın alnına yazılan taleyi və qismətidir. Haqqında cürət edib yazmaq istədiyim şəxs mənə jurnalistikanın sirrlərini öyrədən, Təbəssüm təxəllüsünü yaraşdırıb yaradıcılıq yollarımda məşəl yandıran peşəkar jurnalist Qalib Əhmədovdur.**

*Qələmini bütünlüklə əməkçi halal insanların və doğma Vətənin tərənnüm və təsvirinə həsr edən, Sumqayıtla həmyaşıd olan peşəkar jurnalist, onlarla kitabın müəllifi və redaktoru Qalib (Qadir) Əhmədovun həyat səhifələrindəki nişanələr onun mənalı ömründən bəhs edir:*

1949-cu il iyun ayının 1-də Qəbələ rayonunun Sileyli kəndində anadan olan Qalib Əhmədxan oğlu Əhmədov 1966-cı ildə Hacallı kənd orta məktəbini bitirərək böyük arzularla Bakı şəhərinə gəlir. İndiki Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunsa da, sonradan ali təhsilini həmin universitetin filologiya fakültəsində davam etdirir. 1972-ci ildə ali təhsilini başa vuraraq doğma rayonuna qayıdır və müəllim kimi ilk əmək fəaliyyətinə başlayır. 1973-cü ildən taleyini Sumqayıtla bağlayaraq 49 nömrəli texniki peşə (indiki 10 nömrəli Peşə liseyi) məktəbində tərbiyəçi müəllim, tədris hissə müdiri kimi gənc nəslin təlim-tərbiyəsində, onların savadlı mütəxəssis kimi yetişməsində xidmətləri ilə rəğbət qazanır. 1979-cu ildə Azərbaycan ədəbiyyatı tarixi ixtisası üzrə bitirdiyi universitetin aspiranturasına daxil olur. 1983-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun dissertantı kimi ictimai şüur, ünsiyyət, siyasi mədəniyyət və digər problemlərə dair bir sıra elmi məqalələrlə çıxış edir. 1991-ci ildə "İflas: səbəblər və nəticələr" kitabında cari ictimai-siyasi hadisələr haqqında elmi araşdırmaları toplu halda nəşr olunur. "Təşviqatçı", "Dialoq" jurnallarında elmi-nəzəri şöbənin müdiri, "Azərbaycan kommunisti" adlı nəzəri-siyasi jurnalda şöbə müdiri və "Dirçəliş" jurnalında ideologiya şöbəsinin müdiri, redaktor müavini, "Ayna" qəzetində tərcüməçi işləyir. Sonralar "Xalq qəzeti", "Yeni Azərbaycan" qəzetlərində ədəbi işçi, şöbə müdiri, redaktor müavini, "Respublika", "Azərbaycan" qəzetlərində müxbir, bölgə müxbiri vəzifələrində çalışır. 1984-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin və 1986-cı ildən Azərbaycan Fəlsəfə Cəmiyyətinin üzvüdür. "Dünyaya pəncərə" qəzetinin təsisçisi və baş redaktorudur.

*Bəli, Qalib müəllim ömrünün yarıdan çox hissəsini jurnalistika sahəsinə həsr etməklə, yaradıcılığında cəmiyyət, dövlət və şəxsiyyət problemlərinin araşdırılmasına xüsusi önəm verir. Bu səpkidə vicdan və ədalət yolunda zəfər çalan qələmi şahidi olduqlarını yaddaşlara yazıbdır.* İndiyədək haqsızlıqlara göz yummayan və yığılıb qalan problemləri araşdırıb qələmin gücü ilə həllinə nail olmağı özünə borc bilən Qalib Əhmədov bir jurnalist kimi öz dəst-xətti, səsi-sədası və nəfəsi ilə seçilir. Jurnalist qələmini əyilməz, dözümlü, bütöv şəxsiyyət kimi güclü sanan 70 yaşlı qələm sahibi illər boyu düşündüklərini, gördüklərini və arzusunda olduqlarını "Birinci şəxs: Prezidentin portret cizgiləri", "Demokratik idarəetmənin rəhbər kadrları", "Dövlət və rəhbər", "Keçid dövrünün siyasi paradoksları (1988-1998) Partiyalar, Liderlər, Cərəyanlar", "İstedadlar: Ümidimiz, gələcəyimiz", "Teymur Əhmədov: Ədəbi portret", "Mənəviyyat məbədi", "Corat. Qloballaşan dünyanın daş yaddaşı", "Karvan" və s. adlı kitablarında qələmin gücündən ilhamlanaraq oxucu kütləsinin yaddaşına yaza bilmişdir. Onun ulu öndər Heydər Əliyevdən bəhs edən "Birinci şəxs: portret və cizgilər" kitabı rus dilinə tərcümə olunmuşdur və hər iki dildə ali məktəblərdə tədris olunur.

1999-2001-ci illərdə yaşıdı və yaşadığı doğma Sumqayıt şəhərinin 50 illiyinə "Sumqayıt və sumqayıtlılar", "Sumqayıtla birgə ucalanlar", "Mühitim, müasirlərim, mülahizələrim" adlı həsr etdiyi üç kitab — trilogiyanın hər biri Sumqayıtın möhtəşəm və qüdrətli zəhmət bahadırları haqqında əsl əmək himnidir. Vətənkeş ədib kimi "Corat. Qloballaşan dünyanın daş yaddaşı" adlı kitabı Sumqayıtın 60 illik yubileyinə növbəti hədiyyəsi olmuşdur. Bu kitabın hazırlanmasında əsas məqsədi Xəzərin qoynunda bərq vuran Coratın qədimliyini, Sumqayıtın məhz 2000-ə yaxın yaşı olan Coratın münbit torpaqlarında salındığını xalqımıza tanıtmaq idi. Həmmüəllifi olduğum həmin kitabda Coratın və Sumqayıtın turizm bölgəsi kimi ölkəmizə fayda verə biləcəyi qeyd edilir. 2008-2009-cu illərdə yazdıqlarımızın bu gün şahidi oluruq. Xəzərin kəhraba qumlu sahillərində yerləşən Corat və Sumqayıt minlərlə turistin mənalı istirahəti üçün əlverişli turizm məkanıdır. Əminəm ki, bu Corat haqqında yazılan ilk kitab olduğu üçün diqqətdən kənarda qalmayacaq.

Qalib müəllimlə birgə çalışdığımız illərdən mənə məlumdur ki, o şərqin müdrik oğlu Hacı Zeynalabdin Tağıyevlə bağlı tarixi fakt və araşdırmalarla zəngin olan əsər hazırlayır. Nadir tarixi şəxsiyyətlərdən olan milyonçunu gələcək nəsillərin daha yaxından tanıması üçün vacib və əhəmiyyətli olan



"Şərq müdriki Hacı Zeynalabdin Tağıyev 25 il su uğrunda mübarizədə" adlı əsərini müəyyən səbəblərdən kitab şəklində təqdim edə bilməyən Qalib Əhmədovun fikrincə desək, kitab ərsəyə gəlsə, Hacının müasirləri də yetişər. Həm də kitab Sumqayıtın 70 illik yubileyinə böyük hədiyyə olardı.

İstedadı və bacarığı ilə cəmiyyətə xeyir verən şəxsləri qoruyub təbliğ etmək, önəmli işini, zəngin yaradıcılıqlarını yetərincə qiymətləndirmək lazımdır. Əgər gözlər beynimizin dünyaya açılan pəncərəsidirsə, Sumqayıtda öz xoşbəxtliyini tapan peşəkar jurnalist Qalib Əhmədov 70 ildir ki, dünyaya bu iki pəncərədən baxır və çalışır ki, gördüklərini görə bilməyənlərə və ya görmək istəməyənlərə də çatdırsın. Axı, dünya gör-götür dünyasıdır... Təki ömürgödək olmasın...

**Rəna TƏBƏSSÜM,**
**AJB-nin üzvü.**

# Qazaxlı gənclər hərbi xidmətə ruh yüksəkliyi ilə yollandılar

Azərbaycan Respublikası vətəndaşlarının "2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 iyun 2019-cu il tarixli Sərəncamına müvafiq qazaxlı gənclər yüksək əhval-ruhiyyə ilə hərbi xidmətə yola düşüblər.

Bu münasibətlə Qazağın mərkəzində yerləşən Gənclər Mərkəzinin qarşısında çağırışçıların təntənəli şəkildə yola salınması mərasimi keçirilib. Tədbirdə Qazax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev, müavin Gulaya Həsənova, icra aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, təhsil, mədəniyyət işçiləri, Qarabağ müharibəsi əlilləri, çağırışçılar, onların valideynləri və KİV nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları və çağırışçılar əvvəlcə Heydər Əliyev parkında ümummilli liderin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin xatirəsini yad ediblər. Sonra dahi şəxsiyyətin adını daşıyan mərkəzdə ulu öndərin həyat və fəaliyyətini, ordu



quruculuğundakı xidmətlərini özündə əks etdirən filmə baxıblar.

Daha sonra tədbir Gənclər Mərkəzinin qarşısında davam edib. Vətən torpaqlarının ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qazax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev çıxış edərək rayon rəhbəri Rəcəb Babaşovun adından tədbir iştirakçılarını salamlayıb, bu əlamətdar gün münasibətilə çağırışçıları, onların valideynlərini təbrik edib. Sonra ordu quruculuğu sahəsində qazanılan uğurlardan danışaraq ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlərin ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olduğunu bildirib. Əsası ulu öndər Heydər Əliyevin qoyduğu ordu quruculuğu siyasətinin bu gün onun layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, mayor Mehman Rəhimov çıxış etmişdir. O, 30-a yaxın gəncin hərbi xidmətə yola düşdüyünü qeyd edib. Hərbi xidmətin hər bir gənc üçün müqəddəs borc olduğunu vurğulayaraq gənclərə Vətənin keşiyində ayıq-sayıq dayanmağı, komandirlərin hər bir tapşırığını səylə yerinə yetirməyi tövsiyə edib. Şəhid anası Tamella Süleymanova, "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Qazax rayon şöbəsinin sədr müavini, I qrup Qarabağ müharibəsi əlili Namiq Alıyev, əsgər atası Baxış Hüseynov Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, onların övladlarının ordu sıralarında ləyaqətlə xidmət edəcəklərinə əminliklərini bildiriblər.

Çıxış edənlər əsgər getməyin Vətən qarşısında əsl kişilik məktəbini keçmək olduğunu qeyd edərək bu məktəbi qələbə müjdəli zəfərlərlə başa vurmağı arzu ediblər. Vətənpərvərlik hissini özündə əks etdirən bu məktəbdən hər zaman xoş sədalarının eşidilməsini arzulayıblar.

Sonra söz məktəblilərə verilib. Qazax rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərindən Ayan Nəbilinin, Fidan Bayramovanın, Aytac Salmanovanın, Akif Mustafayevin, İ.Qayıbov adına şəhər 3 saylı tam orta məktəbin şagirdi Türkan Rəhimovanın ifasında Vətənə, Azərbaycan əsgərinə həsr olunmuş şeirlər səslənib.

Müğənnilərdən Afiq Cəfərov, Elmir Quşçuyev də bir-birindən şən mahnı töhfələri ilə gənclərə təbriklərini çatdırıblar. Zurnaçı Nadir Hüseynovun ifasında səslənən hərbi-vətənpərvərlik mahnılarının sədaları altında gənclər rəqs ediblər. Mərasim başa çatdıqdan sonra hərbi çağırışçılar üçrəngli Azərbaycan bayrağını öpərək hərbi xidmətə yola salınıblar. Tədbirin sonunda çağırışçı-gənclərlə xatirə şəkilləri çəkdirilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

*Baş Prokurorluq:*

# Aydın Qurbanovun vəfatı ilə bağlı ictimaiyyət vaxtında məlumatlandırılıb

**Xəbər verildiyi kimi, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müalicə müəssisəsində xəstəliyi ilə əlaqədar müalicə almış təqsirləndirilən şəxs - Aydın Qurbanov intensiv müalicə aparılmasına baxmayaraq, iyulun 9-da saat 21:50-də vəfat edib. Bu barədə Nizami rayon prokurorluğuna daxil olmuş məlumat əsasında prokurorluğun müstəntiqi mərhumun müalicə aldığı palata və meyitə məhkəmə-tibb ekspertləri, müalicə müəssisəsinin nümayəndələri və hal şahidlərinin iştirakı ilə baxış keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, A.Qurbanovun cəsədi ölümün səbəblərinin müəyyən edilməsi məqsədilə iyulun 10-da saat 00:20-də Məhkəmə - tibbi ekspertiza və patoloji anatomiya birliyinin Nizami rayon şöbəsinə yerləşdirilib. Həmin gün saat 10 radələrində məhkəmə-tibb ekspertləri tərəfindən mərhumun bacısı oğlu 1988-ci il təvəllüdlü Suliddin Bayramovun iştirakı ilə meyitin xarici müayinəsi keçirilib. Tibbi müayinə zamanı meyitin bədəni üzərində hər hansı xəsarət və ya xəsarət izləri aşkar edilməyib. Bundan sonra həmin gün saat 13:30-da meyit mərhumun həyat yoldaşı və qohumlarına təqdim olunub.

Məhkəmə-tibbi ekspertizasının A.Qurbanovun xəstəlikdən vəfat etməsi barədə ilkin rəyi iyulun 11-də saat 10:30 radələrində prokurorluğa daxil olub və saat 12 radələrində Baş Prokurorluq və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən ictimaiyyətə geniş məlumat verilib.

**AZƏRTAC**

# Hadisə yerindən qaçmış sürücü həbs edilib

**Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədərək hadisə yerindən qaçmış sürücü həbs edilərək istintaqa cəlb olunub.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 10-da Bakı-Qazax yolunun Hacıqabul rayonu, Muğan qəsəbəsi ərazisində naməlum avtomobillə piyada, 1987-ci il təvəllüdlü Cavanşir Qənbərovun vurulması nəticəsində onun aldığı xəsarətlərdən vəfat etməsi və sürücünün hadisə yerindən qaçması faktına görə Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsinə bilavasitə tabe olan Yol-nəqliyyat hadisələrinə dair işlər üzrə İstintaq və Təhqiqat Şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

İş üzrə hadisə yerinə baxış keçirilərək fotoşəkillər və sxem çəkilib, bir sıra nəqliyyat vasitələrinə baxış keçirilərək avtomobillərin sahibləri dindirilib, müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Aparılmış təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində hadisənin 1966-cı il təvəllüdlü Müslət Əliyevin yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq idarə etdiyi "Ford Transit" markalı, 99-DK-538 dövlət qeydiyyat nişanlı yük avtomobili ilə törədərək hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

M.Əliyev iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ❑ TÜRKİYƏNİN YENİ SİLAHI ABŞ-I NİYƏ NARAHAT EDİR?



ABŞ hər vəchlə Türkiyənin "S-400" zenit-raket komplekslərini almasına mane olmağa çalışıb. Vaşinqton artıq Ankaranı sanksiyalarla və "F-35" qırıcılarına dair müqaviləyə xitam veriləcəyi ilə təhdid edib. Buna baxmayaraq, Rusiya və Türkiyə arasında razılaşma plana uyğun olaraq yerinə yetirilir. "Sputnik" informasiya agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, "S-400"lərin Türkiyəyə tədarükünün birinci mərhələsi artıq iyulun 12-də həyata keçirilib.

Bəs ABŞ niyə "S-400"lərin Türkiyəyə satışından belə narahatdır? Onu çəkindirən məsələ nədir? NATO-da artıq bu sualın cavabını verməyə çalışıblar. Şimali Atlantika Alyansı belə bir qənaətə gəlib ki, Türkiyənin həm "S-400" sistemlərini, həm də "F-35" qırıcı təyyarələrini eyni vaxtda istifadə etməsi nəticəsində bu qırıcıların məxfi saxlanılan texniki və döyüş xüsusiyyətləri aşkara çıxacaq.

Rusiya Hərbi Elmlər Akademiyasının müxbir üzvü Sergey Sudakov bunu belə izah edib: "Türkiyə bir tərəfdən NATO üzvü kimi "F-35" təyyarələrini, digər tərəfdən isə elə bu təyyarələrin qarşısını almaq üçün nəzərdə tutulmuş "S-400" sistemlərini alır".

"ABŞ "F-35" qırıcı-bombardmançı təyyarələrini "S-300" və "S-400" sistemlərini məhv etməyə qadir müasir silah növü kimi qələmə verir. Lakin onun bu iddiası sübut olunmayıb. Amerikalılar çox narahatdırlar ki, yeni zenit-raket komplekslərinin köməyi ilə Türkiyə "F-35"lərdə tətbiq olunmuş innovasiyaları dəf etməyi bacaran bir sistem yaradacaq. Yəni Türkiyə ilə NATO arasında hər hansı bir münaqişə başlasa, Amerika təyyarələri effektivliyini tamamilə itirəcək", - deyə Sergey Sudakov vurğulayıb.

Vaşinqton isə təbii ki, bunu istəmir. "S-400" sisteminin ABŞ-ı narahat edən daha bir üstünlüyü də var - bu onun "çəkindirici" faktor olmasıdır. Bu komplekslər artıq Suriyada öz effektivliyini nümayiş etdirib. Ötən ilin sentyabr ayında "İl-20" kəşfiyyat təyyarəsi ilə bağlı baş vermiş insidentdən sonra Suriya ordusu bir neçə "S-300V4" komplekslərini əldə edib.

Bundan dərhal sonra ABŞ-ın başçılıq etdiyi koalisiyanın, o cümlədən İsrail təyyarələrinin Suriya üzərində uçuşları kəskin şəkildə azalıb. Bir sözlə, bu sistemlər koalisiyanı hava hücumlarından çəkindirən bir faktora çevrilib.

## ❑ KİM ÇEN IN ŞİMALİ KOREYANIN RƏSMİ RƏHBƏRİ OLDU



Şimali Koreya lideri Kim Çen In Konstitusiyaya edilən dəyişikliklərdən sonra ölkənin rəsmi rəhbəri olub. "Sputnik" informasiya agentliyinin məlumatına görə, ölkənin ali qanununun 100-cü maddəsinə əsasən, KXDR-in Dövlət Şurasının sədri dövləti təmsil edən ali liderdir. Bu postu Kim Çen In tutur. Buna qədər isə ölkənin formal lideri Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri olub.

Məlumata görə, 2016-cı ilə qədər Kim Çen In ali rəhbər, partiyanın, KXDR ordusu və xalqının lideri, Koreya Xalq Ordusunun Ali Baş Komandanı, KXDR-in marşalı, KXDR Ali Xalq Məclisinin deputatı, Kim Çen İrin üçüncü oğlu və Böyük varisi titullarını daşıyıb. Sonra isə o, Dövlət Şurasına da rəhbərlik edib.

Hazırkı liderin babası Kim İr Sen KXDR-in qurucusu olub. 1948-ci ildən vəfat etdiyi 1994-cü ilə qədər ölkəni təkbaşına idarə edib. O, həmçinin Şimali Koreyada rəsmi dövlət ideologiyası, dövlətin siyasi sisteminin əsası olan çuçxe ideologiyasının təsisçisi olub. Ölümündən sonra o, Koreyanın əbədi prezidenti elan edilib. Ona görə də hazırda KXDR-də prezident postu mövcud deyil.

## ❑ ERMƏNİSTANDA ELEKTRİK KOLLAPSI



Ermənistanın paytaxtı Yerevanda və ölkənin bir sıra vilayətlərində bir neçə gün öncə elektrik təchizatında fasilə yaranıb. "Sputnik" informasiya agentliyi xəbər verib ki, hətta paytaxt metrosu da öz işini dayandırıb və metrostansiyalara giriş belə məhdudlaşdırılıb. Bu müddət ərzində ölkədə rabitə və internetdə də problemlər müşahidə olunub. Vəziyyət o yerə çatıb ki, Ermənistanın iki böyük istilik elektrik stansiyası söndürülüb. Bu stansiyaların işi yenidən axşam saatlarında bərpa olunub.

Lakin Ermənistanda birdən-birə qazla işləyən "Yerevan" və "Razdan" istilik elektrik stansiyalarını öz işlərini dayandırması sosial şəbəkələrdə müzakirələrə səbəb olub. İstifadəçilər bunu çox qəribə təsadüf kimi dəyərləndiriblər.

Məlum olub ki, Rusiya və İrandan gələn qaz kəmərləri normal işləyib, stansiyalar isə elektrik şəbəkəsinin yüklənməsini azaltmaq üçün söndürülüb. Çünki elektrik şəbəkələrində yüklənmə olduqda cərəyanın tezliyi dəyişə bilər. Əgər cərəyanın artıb-azalması qəza rejiminə keçsə, bu zaman bəzi stansiyalar avtomatik sönə bilər. Məhz Ermənistanda da bu baş verib.

Hələlik Ermənistan elektrik şəbəkələrində baş verən yüklənmənin dəqiq səbəbi açıqlanmır. Ola bilər ki, bu yüklənmə Ermənistanın yüksəkgərginlikli elektrik şəbəkələrinin qarşılıqlı bağlı olduğu İranda baş verib. Bildirilir ki, yay fəslində məhz İranda kondisioner və soyutma sistemləri ilə bağlı elektrik şəbəkələrində yüklənmə artır. Yüklənmə Ermənistan ərazisində də baş verə bilər. Hələlik baş verən yüklənin səbəbi sona qədər dəqiqləşdirilməyib.

## ❑ BMT MYANMANI TƏCİLİ ADDIMLAR ATMAĞA ÇAĞIRIB



BMT-nin insan haqları üzrə ali komissarının müavini Keyt Gilmor Arakan müsəlmanlarının vətəndaşlıq statuslarının tanınması üçün Myanma hökumətini təcili addımlar atmağa çağırıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Myanmadakı zülmdən qaçaraq Banqladeşə sığınmaq məcburiyyətində qalan Arakan müsəlmanlarının qayıdışı üçün Myanma hökuməti ilə BMT arasında imzalanan protokolun 28 may tarixində bir il də uzadıldığını xatırladan Keyt Gilmor qaçqınların geri qayıtması üçün Myanmada əlverişli şəraitin hələ yaranmadığını bildirib.

Eyni zamanda, Keyt Gilmor Myanmadakı zülmdən 31 avqust 2017-ci ildən etibarən qaçaraq Banqladeşə sığınan təxminən 730 min insanın çətin şərtlərdə yaşadığına diqqət çəkib. O deyib: "Arakan əyalətinin mərkəzində yaşayan və əksəriyyəti ölkə içində didərgin vəziyyətə salınmış şəxslərdən ibarət 126 min Arakan müsəlmanının vəziyyəti də eyni dərəcədə narahatlıq doğurur".

Bununla yanaşı, Myanma hökumətinin ölkədəki insan haqlarının pozulması hallarına son verməli olduğunu qeyd edən Keyt Gilmor Arakan müsəlmanlarına və digər etnik qruplara qarşı törədilən ağır cinayətlərin düzgün, şəffaf, qərəzsiz və tam olaraq araşdırılmasına, bütün günahkarlara qanunun aliliyini əsas tutaraq layiq olduqları cəzaların verilməsinə çağırıb.

## ❑ İLON MASKDAN "TESLA" İLƏ BAĞLI YENİLİK



Əvvəlki illərdə istehsal olunmuş "Tesla" avtomobillərinin hamısı "tam avtomatik idarəetmə" funksiyası ilə təchiz olunacaq. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə şirkətin təsisçisi İlon Mask "Twitter" hesabında qeyd edib.

Avtomobillərin "beyin"lərinin yenilənməsi, çox güman ki, 2019-cu ilin dördüncü rübündə başlayacaq. Bildirildiyinə görə, təxminən yarım milyon maşın modernləşdiriləcək.

Kampaniya çərçivəsində köhnə modullu "HW2+" çiplərinin əvəzinə "FSD" ("tam müstəqil idarəetmə") quraşdırılacaq. İlon Mask qeyd edib ki, yeni prosessor artıq üç aya yaxındır ki, şirkətin bütün yeni avtomobillərinə quraşdırılır.

Köhnə avtomobillərin yenilənməsi "tam müstəqil idarəetmə" paketi üçün 6 min dollar ödəyən şəxslər üçün pulsuz olacaq.

Eyni zamanda, İlon Mask hesab edir ki, tam müstəqil idarə edilən maşınlar taksi qismində istifadə oluna bilər. Şirkətin qənaətincə, bu cür taksilərin bütün istismarı müddətində 300 min dollar gəlir əldə etmək mümkündür.

Bununla yanaşı, "Tesla" şirkəti bəyan edib ki, icarəyə götürülmüş "Model 3"ləri icarə müddəti bitdikdən sonra robot-taksi kimi istifadə etmək niyyətindədir.

## ❑ İSVEÇRƏ PİLOTLARI ŞOU YERİNİ DƏYİŞİK SALDILAR



İsveçrəli pilotaj qrupu "Patrouille Suisse" kifayət qədər gülməli bir hadisə ilə üzləşib. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bu barədə "The Aviationist" xəbər verib.

Bildirilir ki, iyulun 6-da ölkənin şimalında yerləşən Langenbruk şəhərində İsveçrə aviasiyasının banisi Oskar Biderin ölümünün 100-cü ildönümü ilə bağlı tədbir keçirilib. Anım mərasiminin proqramına əsasən, pilotaj qrupu şəhərin üstündən uçmalı imiş.

Məlumata görə, şəhər istiqamətində uçan pilotaj qrupu yerdə çoxlu sayda çadır və insanların toplandığını görüb, həmin yerə uçub. Lakin sonradan məlum olub ki, pilotlar səhv tədbirə qatılıblar: onlar həmin vaxt Mümlisvil kommunasında keçirilən mahnı festivalı üzərində şou göstəriblər.

Beləliklə, musiqi festivalının qonaqları əlavə şou izləmək şansını qazanıblar, anım tədbirinin iştirakçılarının isə gözləri yolda qalıb.

"Patrouille Suisse" pilotları uçuş proqramını yerinə yetirəndən sonra bazaya qayıdıblar və oradaca səhvə yol verdiklərini anlayıblar.

Qeyd olunur ki, "Patrouille Suisse" pilotaj qrupu "GPS" sistemi olmayan köhnə qırıcı təyyarələrdən istifadə edir. ■

## Qaradağ Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot-1.** Mal-materialların alınması

**Lot-2.** Yumşaq inventarın və xüsusi geyimlərin alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Lot-1. 150 (yüz əlli) manat**

**Lot-2. 150 (yüz əlli) manat**

**Tel.: 445-28-89**

**Əlaqələndirici şəxs: Maqsud Heydərov**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Qaradağ rayon MKTB*
*VÖEN: 1100082331*
*Kapital Bankın Qaradağ filialı*
*Kod: 200220*
*VÖEN: 9900003611*
*İBAN: AZ88AİİB330100194422002*
*M/h:*
*AZ37NABZ01370100000000001944*
*S.W.İ.F.T. BİKAİİBAZ 2X*

**Ünvan: Lökbatan qəsəbəsi, Müsavi-7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*—iddiaçının müvafiq malları üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 5 avqust 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 15 avqust 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 16 avqust 2019-cu il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 12 iyul 2019-cu il tarixində "Respublika" qəzetində LOT 1 - Tinglərin alınması, LOT 2 - İstehsal vasitələri və avadanlıqlarının alınması, LOT 3 - Aqrotexniki xidmətlərin göstərilməsi və LOT 4 - Bilik və bacarıqların artırılmasının satınalınması məqsədilə elan edilmiş tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar elektron qaydada PORTAL vasitəsilə aparılır.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

---

## Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) "Azəriqaz" İstehsalat Birliyi Şəmkir şəhəri yaxınlığında Bakı-Qazax yolunun sağ tərəfində yerləşən "Şəmkir Aqropark" MMC-nin qazlaşdırılması (sifariş 7-87-16 (D)) işlərinin satınalınması məqsədi ilə açıq tender elan edir

| | |
|---|---|
| 1 | İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:<br>- tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);<br>- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;<br>- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);<br>- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);<br>- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması haqqında müvafiq vergi orqanından arayış;<br>- iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;<br>- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti (o cümlədən maliyyə dövriyyəsi) haqqında bank arayışı;<br>- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;<br>- əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.<br>Bu sənədlər əsas şərtlər toplusunda göstərilmiş qaydada (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) ən geci **19.08.2019-cu il,** Bakı vaxtı ilə saat: **11:00-a** qədər Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi 23 ünvanında "Azəriqaz" İstehsalat Birliyinə təqdim olunmalıdır. |
| 2 | Tenderdə iştirak etmək və Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını göstərilən hesaba ödədikdən sonra əsas şərtlər toplusunu elektron və ya çap formasında əlaqələndirici şəxslərdən həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.<br>Azərbaycan Respublikası<br>Beynəlxalq Bankı ASC Sabunçu Filialı<br>Kod: 805573,<br>VÖEN (bank): 9900001881<br>Müxbir hesab: AZ03NABZ01350100000000002944<br>VÖEN: 9900001621<br>Hesab : AZ72İBAZ38010049449955001212<br>SWİFT kodu: İBAZAZ2X<br>İştirak haqqı heç bir halda geri qaytarılmır.<br>Əlaqələndirici şəxslər:<br>Şəhriyar Babayev<br>"Azəriqaz" İB-nin Əsaslı tikinti şöbəsinin rəisi<br>+994 12 521-00-00 (daxili 29 047)<br>Teymur Cəfərov<br>"Azəriqaz" İB-nin Yeni qazlaşma və inkişaf şöbəsinin rəisi<br>+994 12 521-00-00 (daxili 29 042) |
| 3 | Əsas şərtlər toplusunda göstərilmiş qayada tender təklifi və tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı 1 (bir) əsli və 1 (bir) surəti olmaqla 28.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.<br>Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan sənədlər zərfləri açılmadan geri qaytarılacaqdır. |
| 4 | Tender təklifləri **29.08.2019-cu il** saat **11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. |
| 5 | Satınalınan işlərin yeri və xüsusiyyətləri:<br>Şəmkir şəhəri yaxınlığında Bakı-Qazax yolunun sağ tərəfindəki ərazidə layihəyəyə uyğun olaraq daşıyıcı qaz boru kəmərinin çəkilməsi və sınaqdan keçirilməsi, qaz avadanlıqlarının quraşdırılması. İşlərin icrası üçün tələb olunan mal-material, avadanlıq, cihaz və alətlər podratçı tərəfindən təmin olunacaq. Qalib təşkilatla bağlanılacaq müqavilə üzrə avans ödənişi nəzərdə tutulmur. |
| 6 | Tender təklifinin təminatı şərtləri:<br>- Bank təminatının əsli tender təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.<br>- Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatını qəbul etməmək hüququnu özündə saxlayır.<br>- Bank təminatının forması və şərtləri tenderin əsas şərtlər toplusunda göstərilmişdir. |
| 7 | İxtisas göstəricilərinin qiymətləndirilməsi və müqayisəsi zamanı aşağıdakı meyyarlara diqqət yetiriləcək:<br>- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, idarəetmə səriştəsinin və etibarlılığının, əsas şərtlər toplusunda göstərilmiş minimal texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin olması;<br>- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması;<br>- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;<br>- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;<br>- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması;<br>- satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;<br>- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.<br>- əsas şərtlər toplusunda göstərilmiş digər meyarlar. |
| 8 | Satınalma müqaviləsinin **90 təqvim günü** müddətində yerinə yetirilməsi tələb olunur. |
| 9 | Podratçıların dövlət mənsubiyyətinin aşağıda qeyd olunan ölkələrdən olması qadağandır:<br>- Azərbaycan Respublikasının qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən ticarət münasibətlərinin qurulması qadağan olan ölkələr;<br>- Azərbaycan Respublikası ilə müharibə vəziyyətində olan, Azərbaycan Respublikasının suverenleyinə və ərazi bütövlüyünə təcavüz etmiş, Azərbaycan Respublikasının süverenliyini və ərazi bütövlüyünü tanımayan ölkələr;<br>- SOCAR tərəfindən borc qiymətli kağızlarının (avrobondların) emmisiyası ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əsasən (SOCAR-ın 10 aprel 2013-cü il tarixli 47 nömrəli əmri) ticarət münasibətlərinin qurulması mümkün olmayan ölkələr.<br>- Avropa İttifaqının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, Birləşmiş Millətlər Təşkilatının və ABŞ-ın iqtisadi sanksiya tətbiq etdiyi ölkələr.<br>**"Azəriqaz" İB-nin Tender Komissiyası.** |

---

# Bakı Metropoliteni ictimaiyyətə açıq kütləvi sərnişindaşıma nəqliyyatı növüdür

"Respublika" qəzetinin 29 iyun 2019-cu il tarixli nömrəsində "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin 2018-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri üzrə hesabat dərc edildikdən sonra, bəzi kütləvi informasiya vasitələrində həmin hesabatla bağlı suallar yaranıb. Onlara tam aydınlıq gətirmək məqsədilə ilk növbədə onu bildirək ki, Bakı metropoliteni 2018-ci il ərzində 231,0 milyon, 2017-ci ilə nisbətən 1 faiz və ya 2,2 milyon çox sərnişin daşıyıb. Sərnişin dövriyyəsi isə 2548,9 milyon sərnişin/km təşkil edib ki, bu da əvvəlki ilə nisbətən orta hesabla 1 faiz çoxdur. Ümumilikdə, 2018-ci ildə plan üzrə daşınmalı olan 220 milyon sərnişin əvəzinə, 224,2 milyon ödənişli sərnişin daşınıb. Faktiki olaraq daşınan 231 milyon sərnişinin 6,7 milyonu metrodan güzəştli şərtlərlə istifadə imtiyazına malik olanlardır.

"Bakı Metropoliteni" QSC-nin gəlirləri sərnişin daşınmasından, dövlət büdcəsindən ayrılan subsidiyalardan, reklam yayımından, kənar təşkilatların kabellərinə, bankomatlarına, ödəmə terminallarına xidmət göstərilməsindən və sair daxilolmalardan ibarətdir.

2018-ci ildə "Bakı Metropoliteni" QSC-nin ümumi gəlirləri 108 749,4 min manat, o cümlədən sərnişin daşınmasından - 54 186,3 min manat, dövlət büdcəsindən ayrılan subsidiya - 48 800,0 min manat, reklam yayımından - 2876,4 min manat, digər daxilolmalardan - 2886,7 min manat təşkil edib.

Dünyanın ən inkişaf etmiş metropolitenlərinin iş təcrübəsinin öyrənilməsi və tətbiq edilməsinə dair ölkə başçısının tapşırıqlarının icrasını təmin etmək məqsədilə ötən illər ərzində "Bakı Metropoliteni" QSC-də sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi və onlara göstərilən xidmət mədəniyyətinin yüksəldilməsi, qatarların hərəkətinin təşkili, eləcə də metropolitenin digər infrastrukturunun idarə olunmasında müasir texnologiya və üsulların tətbiq olunması istiqamətində görülən işlərin nəticəsi olaraq, 2018-ci ildə "Sahil", "Bakmil" stansiyaları yenidən qurulmuş, işarəvermə, rabitə və videomüşahidə sistemlərinin vahid mərkəzdən idarə olunmasını təmin edəcək yeni blok post binasının tikintisi və onun bu məqsədlə müasir avadanlıqlarla təchiz olunması, yeni idarəetmə sisteminin mövcud sistemlə əlaqələndirilməsi üçün kabel şəbəkəsinin qurulması, "Nərimanov" elektrik deposunda yeni emalatxana binasının tikintisi, təlim-tədris mərkəzinin günün tələblərinə uyğun yenidən qurulması, ventilyasiya şəbəkələrinin əsaslı təmiri, depo ərazisində yolların və baxış qanovlarının bir hissəsinin yenidən qurulması, 10 vaqonun əsaslı təmiri, 25 vaqonun cari təmiri, qatarların sınaq yolunun tikintisi və bu kimi böyük həcmdə kapital qoyuluşu tələb edən digər işlərin yerinə yetirilməsi davam etdirilib.

Uzun illər ərzində istismar olunaraq mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas fondların yenilənməsi və modernləşdirilməsi ilə bağlı xərclərin bir hissəsi dövlət büdcəsindən ayrılan əsaslı vəsait qoyuluşu, digər hissəsi isə Səhmdar Cəmiyyətin sərəncamında qalan sərbəst vəsait hesabına yerinə yetirilib.

Yeni stansiyaların tikintisi və mövcud maddi-texniki bazanın möhkəmləndirilməsi, fəaliyyətdə olan stansiyaların yenidən qurulması üçün ayrılan investisiya vəsaiti qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq kapitallaşdırılan xərclərə aid edilir. Bu isə öz növbəsində əsas fondların dəyərini artırmaqla onlara hesablanmış amortizasiya ayırmaları xərclərinin artmasına səbəb olur. Eyni zamanda, fəaliyyət növləri üzrə illik amortizasiya normaları qanunvericilikdə nəzərdə tutulmuş maksimal hədd çərçivəsində deyil, faydalı istifadə müddəti nəzərə alınmaqla daha aşağı normalarla hesablanır. Beləliklə, metropolitenin ildən-ilə artan zərəri məhz amortizasiya ayırmaları hesabına formalaşır.

Səhmləri 100 faiz dövlətə məxsus olan "Bakı Metropoliteni" QSC iri vergi ödəyicisi kateqoriyasına aiddir və müəssisənin həm cari, həm də investisiya fəaliyyəti Nazirlər Kabineti tərəfindən təsdiq edilən gəlir və xərclər smetasında təsbit olunan proqnoz göstəricilərinə uyğun həyata keçirilir.

Bakı metropoliteninə alınan avadanlıqların və qurğuların böyük əksəriyyəti xarici ölkələrdən idxal edildiyindən bütün əməliyyatlar xarici valyuta ilə aparılır ki, valyutanın məzənnəsinin dəyişməsi nəticəsində təbii olaraq mənfi və ya müsbət məzənnə fərqi yaranır, bu da öz növbəsində müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə aid edilir. Bəzi mətbu orqanlarında bu əməliyyatlar səhvən valyuta mübadiləsi aparılan məntəqələrin əməliyyatları ilə eyniləşdirilir. Halbuki, "Bakı Metropoliteni" QSC-nin xarici iqtisadi əlaqələrindən irəli gələn bu əməliyyatlar təsdiq olunmuş gəlir və xərclər smetasında göstərilən proqnoza uyğun həyata keçirilir.

Metropolitenlə sərnişindaşıma rentabelli olmadığından yuxarıda qeyd olunan işlərin keyfiyyətlə yerinə yetirilməsinin təmin olunması, eyni zamanda ağır və zərərli şəraitdə çalışan müəssisə işçilərinin əməkhaqqının, kommunal xərclərin və digər zəruri məsrəflərin ödənilməsinin zəruriliyi nəzərə alınaraq bu xərclərin bir hissəsi dövlət büdcəsindən ayrılan subsidiyalar hesabına qarşılanır.

**Fərhad İBRAHİMOV,
"Bakı Metropoliteni" QSC-nin Maliyyə departamentinin rəisi.**

---

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

Karbon katod bloku və polad millər dəstinin təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 271-16-12 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2019-08-10 14:00 tarixinədək qəbul olunur.

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 19.06.2019-cu il tarixində keçirilmiş "Təlim Tədris Mərkəzində" video, audio sisteminin quraşdırılması və işə buraxılması işlərinin "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə "İnteqreyted Servis" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 09.07.2019-cu il tarixdə ƏDV daxil 67 336,70 manat (altmış yeddi min üç yüz otuz altı manat 70 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin
Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 6 iyul 2019-cu il tarixli sayında Mərkəzi Dəmiryol Xəstəxanasının dərc olunmuş tenderi ləğv olunur.

**Tender Komissiyası.**

---

"İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyət Bank olmayan Kredit Təşkilatının (İNKA) Ümumi Yığıncağının qərarına əsasən təşkilatın nizamnamə kapitalı azaldılaraq 207.276.46 (iki yüz yeddi min iki yüz yetmiş altı manat qırx altı qəpik) manat məbləğində (pul formasında) müəyyən edilmişdir.

Kreditorları maraqlandıran suallarla bağlı Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi 21 F ünvana müraciət edilə bilər.

---

Ağəliyeva Aynur Xələf qızının adına Bakı şəhəri, Xətai rayonu, Q.Məmmədov küçəsi, ev 4, mənzil 608-ə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Füzuli rayonu Əhmədalılar kənd sakini Mehdiyev Əvəz Vəli oğlunun xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən sahəsi 699,38 kv.m olan həyətyanı sahəyə verilmiş (A N 141718, 22 iyun 2009-cu il tarixli) qeydiyyat nömrəsi 799 olan torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Quba şəhər sakini Əhmədova Nailə Tərlan qızının adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN: 3108 A, kod: 30301004) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun adına Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 18 aprel 2011-ci il tarixli qərarı ilə mətbu nəşrin təsis edilməsi barədə verilmiş 3397 nömrəli sənəd (müraciət) itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu Qəhrəmanlı qəsəbə sakini Maqsudlu Xəzər Həsən oğlunun və ailə üzvlərinin mülkiyyətində olan həmin qəsəbədə yerləşən 3,4292 ha torpaq sahəsinə mülkiyyət hüququna dair verilmiş RX seriyalı 1149354 nömrəli çıxarış (reyester nömrəsi 607013016858) və Torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorluğu və kollektivi energetika fakültəsinin dekan müavini Qorxmaz Hüseynova, anası**
**HƏBİBƏ xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Müşfiq Mirzə "Azərdövsutəslayihə" İnstitutunun direktoru Respublikanın Əməkdar mühəndisi Elbrus Paşayevə, əzizi**
**ROZA xanımın**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Cəlilabad Hərbi Məhkəməsinin kollektivi hərbi məhkəmənin sədri vəzifəsini icra edən Vüqar Əhmədova, atası**
**İKRAM ƏHMƏDOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Professor Ramiz Hümbətov Mürsəl Rüstəmova, əzizi**
**SƏRDAR RÜSTƏMOVUN**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**Yasamal rayon Uşaq bağçalarının rəhbərlikləri Sücaət İsmayılova, anası**
**SƏMƏRİYYƏ xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Əmirxan Babaşov ailə üzvləri ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Bankının idarə heyətinin sədri Elman Rüstəmova, əzizi**
**SƏRDARIN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Afik Vəlimətov "Təzadlar" qəzetinin baş redaktoru Asif Mərziliyə, anasının**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Adil, Elşən, Rövşən Şərifov qardaşları Mürsəl Rüstəmova, atası**
**SƏRDAR RÜSTƏMOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Əli Mahmudov Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə, anası**
**ZİNYƏT xanımın**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor
Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi
Müşfiq MİRZƏ**

● Çapa imzalanmışdır
**12.07.2019**